AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 19 (1364), 8 - 14 may 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycanın artan beynəlxalq nüfuzu və idmana dövlət qayğısı sayəsində hər il ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilir. Belə yarışlar sırasında futbol xüsusi yer tutur. 17 yaşınadək qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə və 17 yaşınadək kişilər arasında futbol üzrə Avropa çempionatının final mərhələsinin 2016-cı ildə Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir. Eyni zamanda, ölkəmiz 2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununa (üç qrup və bir 1/4 oyunu) ev sahibliyi edəcək.

2017-ci il sentyabrın 20-də Avropa Futbol Assosiasiyaları Birliyi (UEFA) İcraiyyə Komitəsi tərəfindən 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Nüfuzlu turnirin final oyununun Bakı şəhərinə həvalə edilməsi ölkəmizdə görülən bütün işlərə, o cümlədən idman və bədən tərbiyəsi sahəsində əldə edilən nailiyyətlərə beynəlxalq və Avropa futbol qurumları tərəfindən verilən yüksək qiymətin göstəricisidir.

Bu oyunların Bakıda təşkili futbolun daha da inkişafına, ölkəmizdə idman sahəsində həyata keçirilən dövlət siyasətinin gücləndirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, dünya idman aləmində önəmli yer tutmasına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ilin may ayında Bakı şəhərində keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Təşkilat Komitəsinin sədr müavini**

Rövnəq Abdullayev - Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Prezidenti, UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində keçirilməsi ilə bağlı əməliyyat işlərinin rəhbəri

**Təşkilat Komitəsinin üzvləri**

Yusuf Məmmədəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının vergilər naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri

Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikası təhsil naziri

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Mədət Quliyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüsal Hüseynov - Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin rəisi

Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

Etibar Pirverdiyev - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Balababa Rzayev - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

Çingiz Hüseynzadə - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Anar Ələkbərov - Heydər Əliyev Mərkəzinin direktoru

Vüsal Kərimli - Bakı Nəqliyyat Agentliyinin direktoru

Elxan Məmmədov - Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Baş katibi, UEFA Avropa Liqasının final oyununun Bakı şəhərində keçirilməsi üzrə əlaqələndirici.

2. Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı bütün təşkilati işlərin icra olunması, UEFA ilə əlaqələndirmə işlərinin aparılması Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına həvalə olunsun.

3. Azərbaycan Futbol Federasiyaları Assosiasiyası futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı xüsusi tədbirlər planı hazırlayıb Təşkilat Komitəsinə təqdim etsin.

4. Azərbaycan Futbol Federasiyaları Assosiasiyası futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 may 2018-ci il.***

## *Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti Canni İnfantinodan*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti kimi öz adımdan və bütün futbol ictimaiyyəti adından təbrik edirəm.

İnanıram ki, son illərdə Azərbaycanın sabitliyinə və iqtisadi inkişafına verdiyiniz mühüm töhfələr, idarəçilik qabiliyyətiniz və yüksək insani keyfiyyətləriniz Azərbaycan Respublikasının Prezidenti kimi qarşınızda duran vəzifələrin həllində Sizə kömək edəcək və ölkənizin sabit inkişafına müsbət təsir göstərməkdə davam edəcək.

Fürsətdən istifadə edərək, həmçinin ölkənizdə futbolun geniş yayılmasını təmin etmək, eləcə də futbolun müxtəlif mədəni və ictimai maneələrin aradan qaldırılmasında əhəmiyyətini nümayiş etdirmək və bu idman növünü hamı üçün əlçatan etmək istiqamətindəki səylərinizə və dəstəyinizə görə Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm. Ən qısa zamanda yenidən görüşüb Sizi şəxsən təbrik etməyi arzulayıram.

***Hörmətlə,***
***Canni İnfantino***
***Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti***

## *UEFA-nın prezidenti Aleksander Çeferindən*

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycanda futbolun inkişafı ilə bağlı 2016-cı ildə Bakıda keçirdiyimiz görüşü məmnunluq hissi ilə xatırlayıram. İcazə verin, ötən müddətdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına (AFFA) və valehedici ölkənizin milyonlarla futbol azarkeşinə verdiyiniz dəstək üçün Sizə bir daha təşəkkürümü bildirim.

Prezidentliyinizin yeni dönəmində Bakıda dünya miqyaslı iki futbol tədbiri keçiriləcək - UEFA Avropa Liqası 2019-un final oyunu və Avro-2020-nin oyunları. Əminəm ki, Sizin dəstəyiniz və AFFA-nın diqqətəlayiq səyləri sayəsində hər iki vacib yarış birmənalı şəkildə uğurla keçiriləcəkdir.

Ali dövləti fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

***Dərin hörmətlə,***
***Aleksander Çeferin***
***UEFA-nın prezidenti***

## Akademiyada ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr olunmuş tədbir keçirilib

***Mayın 7-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş xatirə tədbiri keçirilib.***



Xatirə tədbirində Tofiq Quliyev adına 12 nömrəli musiqi məktəbinin uşaq xoru tərəfindən ümummilli liderin sevimli mahnıları ifa olunub. Tədbir iştirakçıları daha sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmə tamaşa ediblər.

Tədbirdə Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Olimpiya və dünya çempionları, professor-müəllim və tələbə heyəti iştirak edib.

Yubiley tədbirində iştirak edən dövlət rəsmiləri xüsusi olaraq qeyd ediblər ki, ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə həm idmana, həm təhsilə münasibət kökündən dəyişib. Ulu öndər tərəfindən təməli qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahat yönümlü dövlət təhsil siyasətinin əsas məqsədi ölkənin malik olduğu təbii sərvətlərin insan kapitalına çevrilməsi olmuşdur.

## Belqrad Avropa Olimpiya Komitəsinin Baş Assambleyasına ev sahibliyi edəcək

Mayın 9-12-də Serbiyanın Belqrad şəhərində Avropa Olimpiya Komitəsinin (AOK) İcraiyyə Komitəsinin iclası və 47-ci Baş Assambleyası keçiriləcək.

Tədbirdə Azərbaycan nümayəndə heyətini AOK-un İcraiyyə Komitəsinin üzvü, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibin müavini Azər Əliyev, Beynəlxalq Əlaqələr İdarəsinin rəisi Anar Bağırov və Marketinq İdarəsinin direktoru Mehman Kərimov təmsil edəcəklər.

Tədbirin gündəliyinə əsasən mayın 10-da Çingiz Hüseynzadə adı çəkilən təşkilatın İcraiyyə Komitəsinin iclasında iştirak edəcək.

Mayın 11-12-də isə Avropa Olimpiya Komitəsinin Baş Assableyasının iclası və AOK-un 39-cu seminarı keçiriləcək. Assambleyada eyni zamanda AOK-un illik hesabatı müzakirə olunacaq. Həmçinin, Pxençxan-2018 və Tokio-2020 Olimpiya Oyunlarının Təşkilat Komitələrinin hesabat çıxışları gündəlikdə olan məsələlər sırasındadır. Bundan başqa Belqrada toplaşan Olimpiya rəsmiləri tərəfindən 2019-cu il Minsk Avropa Oyunlarının məruzələri də dinləniləcək. AOK-un Baş Assambleyası çərçivəsində qış idman növləri üzrə "VII Pyotr Nurovski - Avropanın ən yaxşı gənc idmançı" mükafatı təqdim olunacaq.

Əlavə olaraq, Azərbaycan nümayəndə heyəti tərəfindən Azərbaycanda keçiriləcək Yeniyetmələrin Yay Olimpiya Oyunlarının təqdimatı olacaq.

## Atletimiz Dohada üçüncü yeri tutub




Azərbaycan atleti Aleksis Kopello Qətərin paytaxtı Dohada atletika üzrə Brilliant Liqasının birinci mərhələsində bürünc medal qazanıb. Üçtəkanla tullanma yarışlarında təmsilçimiz 17,21 metr nəticə göstərərək üçüncü yeri tutub.

Yarışın qalibi adını Kuba idmançısı Pedro Pikardo qazanıb. ABŞ idmançısı Kristian Teylor isə yarışı ikinci pillədə başa vurub.

## Triatlonçumuz Dünya kubokunda uğurla çıxış etdi

Triatlon üzrə Azərbaycan yığmasının üzvü Rostislav Pevtsov Çinin Çenqdu şəhərində keçirilən Dünya kubokunda qızıl medal qazanıb.

Yarış iki mərhələdən ibarət olub. Əvvəlcə idmançılar yarımfinalda mübarizə aparıblar. Rostislav yarımfinalda 5-ci olub və finala yüksəlib. İdmançımız finalda 500 metrlik su məsafəsini 6 dəqiqə 29 saniyəyə başa vurub. Sonra 10 kilometrlik veloyürüşü 13 dəqiqə 43 saniyəyə qət edib. Yarışın sonuncu mərhələsi - 2,5 kilometr məsafəyə qaçış üzrə isə R.Pevtsov 7 dəqiqə 3 saniyəlik nəticə göstərib. Ümumi hesablamada 28 dəqiqə 18 saniyə vaxt göstəricisi ilə R.Pevtsov birinci yerə layiq görülüb.

Xatırladaq ki, triatlonçumuz cari mövsümdə Las Palmasda keçirilən Avropa kubokunda ikinci olub və Misirin Şarm əş-Şeyx şəhərində təşkil olunan Açıq Afrika kuboku yarışlarında gümüş medal qazanıb.

## Argentinaya vəsiqə qazananlarla görüş

Milli Olimpiya Komitəsində (MOK) Buenos-Ayres-2018 Yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya əldə etmiş idmançılar, həmçinin məşqçilər və federasiya nümayəndələri ilə görüş keçirilib.

MOK-un idman mütəxəssisi Vaqif Əliyev Oyunların əhəmiyyətindən, Buenos-Ayres-2018-ə hazırlıq, Olimpiadada yaşayış və akkreditasiya məsələləri haqqında məlumat verərək idmançılara uğurlar arzulayıb.

Sonra MOK-un əməkdaşları Oyunlarla bağlı təqdimatla çıxış ediblər. Təqdimatda idman yarışlarının sayı, növləri, keçiriləcəyi məkanlar, iştirakçıların və rəsmilərin ehtimal olunan sayı və digər vacib məqamlar barədə iştirakçılara ilkin məlumat verilib. Bu Olimpiadada əsas diqqətin dopinqlə mübarizəyə yönəldildiyi qeyd olunub.

Xatırladaq ki, yeniyetmələrin III Yay Olimpiya Oyunları oktyabrın 6-18-də Argentinanın paytaxtı Buenos-Ayresdə keçiriləcək. Oyunlarda 4 minə yaxın idmançının



iştirakı gözlənilir. Hazırda Azərbaycan yığma komandasının hesabında 7 lisenziya var. Lisenziyalardan 2-si üzgüçülük, 1-i gimnastika, 2-si stolüstü tennis, 1-i taekvondo və 1-i boks idman növü üzrə qazanılıb.

Tədbirdə həmçinin Beynəlxalq Olimpiya Komitəsi və "Olimpiya Gündəliyi-2020" haqqında iştirakçılara məlumat verilib. "Olimpiya Gündəliyi-2020"nin əsas müddəası olan dopinqlə mübarizə haqqında videoçarx təqdim olunub.

## Komandamız beynəlxalq turnirə hazırlaşır

Yeniyetmə boksçulardan ibarət Azərbaycan milli komandası Şamaxıda təlim-məşq toplanışında iştirak edir. Komandamızın mayın 10-dək davam edəcək hazırlığında 25 idmançı yer alıb.

Hazırlıq prosesində Vaqif Kazımovun rəhbərlik etdiyi yığmamızla yanaşı, Gürcüstan millisinin üzvləri də iştirak edirlər. İki yığmanın birgə təlim-məşq toplanışında iştirakı Heydər Əliyev kubokuna hazırlıq məqsədi daşıyır. Bu turnir mayın 10-14-də Bakıda keçiriləcək.



## Yığmamız Avropa çempionatına yollanır

Mayın 10-13-də böyüklərdən ibarət taekvondo üzrə Azərbaycan milli komandası Kazanda keçiriləcək 23-cü Avropa çempionatında iştirak edəcək. Çempionatdan əvvəl Azərbaycan Taekvondo Federasiyasının inzibati binasında böyüklərdən ibarət yığma komandanın üzvləri ilə görüş keçirilib. Tədbirdə federasiyanın vitse-prezidentləri Nağı Səfərov, Niyaməddin Paşayev, baş katib Həmdiyyə Məmmədov və yığma komandanın üzvləri iştirak ediblər. Federasiya rəsmiləri komandanın İsveçrədə keçirilmiş ötən Avropa çempionatında Milad Beigi Herçəqaninin qızıl, Patimat Abakarovanın gümüş, Payam Qobadi Oğazın bürünc medal qazanaraq uğurlu çıxışını xatırladıblar. Bu dəfə də idmançılarımızın uğur qazanacaqlarına əminlik ifadə olunub.

Qitə çempionatında Azərbaycanı təmsil edəcək komandanın heyəti də müəyyənləşib. Avropa çempionatına Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayevin rəhbərliyi ilə 15 taekvondoçu yollanacaq. Komandamız yarışda baş məşqçi Reza Mehmandoust, böyük məşqçi Rəşad Əhmədov və qadınlardan ibarət komandanın baş məşqçisi Elnur Amanovun rəhbərliyi altında mübarizə aparacaq. Beynəlxalq dərəcəli hakim Gündüz Abdullayev Avropa çempionatında ölkəmizi hakim qismində təmsil edəcək. Yığma komandamız mayın 14-də vətənə qayıdacaq.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə mayın 13-də keçiriləcək "Bakı Marafonu-2018"də qeydiyyat prosesi uzadılıb. Marafonda iştirak etmək istəyən 16 yaşından yuxarı hər bir şəxs mayın 12-si saat 14:00-dək qeydiyyat məntəqələrinə və marafonun rəsmi saytına müraciət edə bilər.

## *"Bakı Marafonu-2018"də qeydiyyat müddəti uzadılıb*

"Bakı Marafonu-2018"dən toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlara bağlı layihəsinə yönəldiləcək.

Mayın 13-də keçiriləcək marafonun fəxri iştirakçıları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, o cümlədən bir sıra tanınmış şəxslər var.

Qeyd edək ki, marafon Dənizkənarı Bulvar İdarəsinin, Bakı Olimpiya Stadionunun dəstəyi ilə təşkil olunur. "Bakı Marafonu-2018" Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək.

## Avropa çempionatında pəhləvanlarımızdan 18 medal

Aprelin 30-dan mayın 6-dək Rusiya Federasiyasının Kaspiysk şəhərində güləş üzrə böyüklər arasında Avropa çempionatı keçirilib. Çempionatda Azərbaycanın yunan-Roma, sərbəst güləş və qadın güləşi üzrə yığma komandalarının üzvləri iştirak ediblər. Komandamız yarışların 18 (4 qızıl, 5 gümüş və 9 bürünc) medalına sahib olub.

Yarışların ilk iki günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz Avropa çempionatını 5 (1 qızıl, 2 gümüş və 2 bürünc) medalla başa vurublar.

Qızıl medalı yığmamıza Eldəniz Əzizli (55 kq) qazandırıb. Güləşçimiz Rusiya təmsilçisi ilə ilk görüşünü qələbə ilə başa vuraraq yarımfinala yüksəlib. O, yarımfinal görüşündə 1:7 hesabla geridə olmasına baxmayaraq əzmkarlıqla ikinci rusiyalı rəqibi Vasili Topoevi 9:7 hesabı ilə məğlub edib. Finalda Eldəniz Əzizli Estoniya idmançısı ilə qarşılaşıb. Rəqibinə heç bir şans verməyən güləşçimiz çempionatın qızıl medalını qazanıb.

Murad Məmmədov (60 kq) və Rəsul Çunayev (72 kq) isə gümüş medala sahib olublar. Bürünc medalları isə yığmamızın aktivinə Elvin Mürsəliyev (77 kq) və Rafiq Hüseynov (82 kq) yazdırıblar. Bu nəticə ilə yığmamız komanda hesabında 113 xal toplayaraq Avropa çempionatının bürünc mükafatına sahib olub. Rusiya 169 xalla birinci, Gürcüstan komandası isə 127 xalla ikinci yeri tutub.

### Qadın güləşçilərimiz tarix yazdılar



Avropa çempionatında yunan-Roma güləşçilərindən sonra mübarizəyə qadın güləşçilərimiz qoşulublar. Qadın güləşi üzrə yığma komandamız yarışların 5 (1 qızıl, 1 gümüş və 3 bürünc) medalına sahib olmaqla bu növ üzrə Azərbaycan güləşi tarixində rekorda imza atıb.

Komandamızın lideri Mariya Stadnik (50 kq) adını 7-ci dəfə Avropa çempionluğuna yazdırmağa müvəffəq olub. I Avropa Oyunların qalibi olan xanım idmançımız Almaniya və Rusiya təmsilçiləri ilə keçirdiyi ilk görüşlərdən qalib ayrılıb. Yarımfinala yüksələn Mariya Stadnik bu görüşdə də vaxtından əvvəl qələbə qazanmaqla adını finala yazdırıb. Həlledici görüşdə güləşçimizin rəqibi Rumıniya idmançısı olub. Cəmi 32 saniyə ərzində rəqibini döşəyə çıxmağa peşman edən Mariya Stadnik Avropa çempionatında növbəti qızıl medalını qazanıb. Buna qədər güləşçimiz 6 dəfə Avropa çempionatının və I Avropa Oyunlarının qalibi olub.

Yığmamıza gümüş medalı 65 kq-da mübarizə aparan Elis Manolova qazandırıb. İdmançımız Macarıstan və Çexiyadan olan rəqiblərini mübarizədən kənarlaşdıraraq yarımfinala vəsiqə qazanıb. Yarımfinalda İsveç idmançısına heç bir şans verməyən Elis finala yüksəlib. Finalda onun rəqibi Finlandiya təmsilçisi Petra Olli olub. Gərgin keçən görüşdə uduzan Elis Manolova çempionatın gümüş medalına yiyələnib. Yığmamızın digər üzvləri Tatyana Omelçenko (59 kq), Alyona Kolesnik (57 kq) və Səbirə Əliyeva çempionatın bürünc medalını qazanıblar. Beləliklə, qadın güləşi komandamız Avropa çempionatını dördüncü sırada tamamlayıb.




### Hacı Əliyev 2 qat Avropa çempionu adına layiq görüldü

Avropa çempionatında sərbəst güləşçilərimiz axırıncı mübarizə aparıblar. Pəhləvanlarımız çempionatı 8 (2 qızıl, 2 gümüş və 4 bürünc) medalla başa vurublar.

Qızıl medalları yığmamıza Hacı Əliyev (65 kq) və Georgi Edişeraşvili (57 kq) qazandırıb.

Azərbaycanı Avropa çempionatında 65 kq çəkidə təmsil edən Hacı Əliyev Avstriya, Türkiyə və Sloveniya təmsilçilərini məğlub edərək finala yüksəlib. Finalda idmançımızın rəqibi rusiyalı İlyas Bekbulatov olub. Görüşün əvvəlində geridə olan həmyerlimiz əzmkarlıqla mübarizə apararaq ikinci dəfə Avropa çempionu adını qazanıb.

57 kq-da çıxış edən Georgi Edişeraşvili ilk görüşdə Bolqarıstan və Ermənistan təmsilçilərini tam üstünlüklə məğlub edərək, yarımfinala vəsiqə qazanıb. O, belaruslu rəqibinə də qalib gələrək finala yüksəlib. Həlledici görüşdə güləşçimiz rəqibi Rusiya təmsilçisi Zavur Uguievlə qarşılaşıb. Son saniyədə yerinə yetirdiyi fəndlə qələbə qazanan Edişeraşvili Avropa çempionatının qızıl medalına sahib olub.

Aleksandr Qostiyev (86 kq) və Şərif Şərifov (92 kq) gümüş medalla kifayətlənib. Bürünc medalları isə yığmamıza Murtuz Müslümov (70 kq), Cəbrayıl Həsənov (79 kq), Nurməhəmməd Hacıyev (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qazandırıb. Bu nəticə ilə yığmamız komanda hesabında 160 xal toplayaraq Avropa ikincisi olub. Rusiya 204 xalla birinci, Türkiyə 125 xalla üçüncü yerdə qərarlaşıb.

Məlumat üçün bildirək ki, Avropa çempionatında yarışların idarə olunmasında ölkəmizi 3 hakim təmsil edib. I-S kateqoriyalı hakimlər Hicran Şərifov və İntiqam Alıyevlə yanaşı I kateqoriyalı hakim Asif Şirəliyev də görüşlərin idarə edilməsində iştirak edib. Hakimlərimizin arasında ən təcrübəlisi Hicran Şərifovdur. O, üç Olimpiya Oyunlarında hakimlik edən yeganə güləş hakimidir və 2012-ci il London Yay Olimpiya Oyunlarında "Qızıl Fit" mükafatına layiq görülüb.

İntiqam Alıyev isə, ötən il keçirilmiş nəzəri və praktiki imtahanlardan uğurla keçərək I-S kateqoriyasına yüksəlib.

Asif Şirəliyev həm də I-S kateqoriyasını almaq üçün imtahanda iştirak edir. İmtahandan uğurla keçəcəyi təqdirdə Azərbaycanı beynəlxalq yarışlarda 3 nəfər I-S (Olimpiya) kateqoriyalı hakim təmsil edəcək.

***Səadət Hakıyeva***



*Müsahibə*

# “Azərbaycan dünyada ədalət prinsiplərinə sadiq ölkə kimi tanınır”

***Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Respublikamızda idmanın qısa müddətdə inkişafı, ilk növbədə, bu sahəyə göstərilən dövlət qayğısı ilə bağlıdır. Azərbaycan inkişaf edən bir dövlət kimi idman sahəsində misilsiz nailiyyətlər qazanıb. Onların arasında yeni idman infrastrukturunun yaradılması, təmsilçilərimizin ən mötəbər yarışlarda uğurlu nailiyyətlər qazanması, ölkəmizdə beynəlxalq səviyyəli yarışların təşkili xüsusi yer tutur. Beynəlxalq idman tədbirlərinin ölkəmizdə təşkil edilməsi artıq ənənə halını alıb. Azərbaycanda yüksək səviyyədə keçirilmiş I Avropa Oyunları, Ümümdünya Şahmat Olimpiadası, futbol üzrə 17 yaşlılar arasında Avropa çempionatı, “Formula-1” Avropa Qran-Pri yarışları, IV İslam Həmrəyliyi Oyunları, dünya və Avropa çempionatları və digər beynəlxalq turnirlər Azərbaycanın bu sahədəki potensialını nümayiş etdirməklə yanaşı, vətənimizin beynəlxalq aləmdə tanınması və təbliği baxımından da böyük əhəmiyyət kəsb edir.***



Azərbaycan idmanının belə yüksəlişi dünya ictimaiyyətinin də marağına səbəb olur. Məhz bunun nəticəsidir ki, ölkəmizə beynəlxalq qurumlar tərəfindən etimad göstərilir. Sevindirici haldır ki, paytaxtımızda ən mötəbər yarışların keçirilməsi ilə yanaşı, həmyerlilərimiz də bir sıra beynəlxalq qurumlarda rəhbər vəzifələrdə təmsil olunurlar.

Qeyd edək ki, bugünlərdə Budapeştdə keçirilən Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) İcraiyyə Komitəsinin iclasında BƏOK Ədalətli Oyunlar İnkişaf Mərkəzinin Bakıda yaradılması qərara alınıb. İcraiyyə Komitəsi üzvlərinin yekdil səslərinə əsasən, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev 9 dövləti əhatə edən (Azərbaycan, Gürcüstan, Tacikistan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Monqolustan, İran) BƏOK Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti seçilib. Bugünlərdə Xəzər İsayevlə görüşərək mərkəzin fəaliyyəti barədə ətraflı məlumat aldıq.

***- Xəzər müəllim, ilk növbədə sizi BƏOK Ədalətli Oyunlar İnkişaf Mərkəzinin prezidenti seçilməyiniz münasibəti ilə təbrik edirəm. İstərdik mərkəzin yaradılması təşəbbüsü barədə bizə məlumat verəsiniz.***

- Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası cənab İlham Əliyevin 1997-ci ildə MOK-un prezidenti seçilməsindən sonra yaradılıb. Cənab İlham Əliyevin təşəbbüsü ilə fəaliyyətə başlayan təşkilat 1998-ci ildə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) üzvü olub. Həmin vaxt ardıcıl iki il təşkilatın tədbirində ölkəmizi Olimpiya çempionu Rəfiqə Şabanova, sonrakı il MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə təmsil etmişdi. 2000-ci ildən Azərbaycan Ədalətli Oyunlar Komissiyasının rəhbəri olaraq ölkəmizi qitə və dünya Ədalətli Oyunlar təşkilatlarının tədbirlərində təmsil edirəm. Biz Avropa və Beynəlxalq Ədalətli Oyunlar təşkilatları ilə sıx əməkdaşlıq edirik. 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının konqresi və Assambleyası, 2015-ci ildə isə Avropa və Beynəlxalq Ədalətli Oyunlar hərəkatlarının birgə konqresi, Baş Assambleyası və qala gecəsi ölkəmizdə yüksək səviyyədə təşkil olundu. Gündəlik həyatda Olimpiya tərbiyəsinin, Ədalətli Oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyi hərtərəfli dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının “Şərəf” nişanı ilə təltif edilib. 2015-ci ildə isə dövlətimizin başçısına Beynəlxalq Ədalətli Oyunlar Təşkilatının xüsusi medalı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya isə Avropa Ədalətli Oyunlar Hərəkatının ordeni təqdim olunub. Bu sahəyə ölkəmizdə dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, beynəlxalq qurum Azərbaycana etimad göstərərək mərkəzin məhz Bakıda yaradılmasına qərar verib. Yaradılan yüksək səviyyəli qarşılıqlı əməkdaşlıq işlərimizin bundan sonra da uğurla davam edəcəyinə əsas verir.

***- Maraqlıdır, Ədalətli Oyunlar İnkişaf Mərkəzinin əsas fəaliyyəti nədən ibarət olacaq?***

- Azərbaycan dünyada ədalət prinsiplərinə sadiq ölkə kimi tanınır. Biz çalışacağıq ki, AzƏOK-la Mərkəzin fəaliyyətini birgə həyata keçirək. Bildiyiniz kimi, AzƏOK tərəfindən indiyədək bir sıra uğurlu işlər həyata keçirilib.

Mərkəzin əsas fəaliyyəti idmançı, hakim, məşqçi və mütəxəssislərə ədalət prinsipini aşılamaq, insanları bu ruhda yaşamağa dəvət etməkdir.

İdman xalqlar arasında dostluğa, qardaşlığa, qarşılıqlı anlaşmaya yardım göstərən vasitələrdən biri olmaqla yanaşı, ədalətli mübarizəni, sağlam həyat tərzini təbliğ edir, insanın fiziki və mənəvi tərbiyəsində mühüm rol oynayır.

Təəssüf ki, dünyanın bəzi ölkələrində bu sahəyə demək olar ki, diqqət yönəldilməyib. Bunun nəticəsidir ki, hazırda dünya idmanında haqsızlıqlara rast gəlinir.

Mərkəz bu haqsızlıqlara, qeyri nizam-intizam hərəkətlərinə və ədalətisizliyə qarşı maarifləndirmə işləri həyata keçirəcək. Dünya idmanı hazırda dopinq qalmaqalları ilə üzləşib. Qadağan olunmuş preparatlardan istifadə ədalət prinsiplərinə zidd olan addımdır. Həmçinin hakimlərin idmançılara qarşı qərəzli mövqedən çıxış etməsi istiqamətində də maarifləndirmə işinin aparılması vacibdir. Hakimlərin qərəzli yanaşması idmançıların gələcək karyerasının zədələnməsinə, hətta onların idmandan uzaqlaşmasına gətirib çıxarır. Paralimpiyaçı idmançılar ədalət prisiplərinin önündə dururlar. Belə ki, sağlam həyat tərzi ilə yaşamaq, idman arenasında əzmkarlıq nəticəsində möhtəşəm qələbələrin qazanılması, ruh yüksəkliyi və həyat eşqi bu idmaçıların amalıdır. Biz çalışacağıq bu amilləri Mərkəzə üzv olan ölkələrdə təbliğ edək.

Universitetlərdə, məktəblərdə, həmçinin bağçalarda görüşlərin təşkil olunması istiqamətində işlər görülür. Bu layihə vasitəsilə uşaqlara və gənclərə Ədalətli Oyunların ideyası, fəlsəfəsi və amalı çatdırılmalıdır. Mərkəzin fəaliyyəti zamanı aidiyyatı qurumların işindən də istifadə edəcəyik. İl ərzində 4-5 tədbirin təşkil olunması nəzərdə tutulub. Maarifləndirmə tədbirlərini təkcə paytaxtda deyil, bölgələrdə də keçirmək istəyirik. Mərkəz ildə bir dəfə üzv ölkələrin Bakıda görüşünü təşkil edəcək. Əgər Mərkəzə üzv ölkələr bu tədbirlərə ev sahibliyi etmək üçün müraciət etsələr təbii ki,biz tədbirin təşkilini onlara həvalə edə bilərik. Mərkəzin loqosu, şəxsi hesabı olacaq və rəsmi internet səhifəsi fəaliyyət göstərəcək. Beynəlxalq Ədaləti Oyunlar Komitəsinin prezidenti Jeno Kamuti və İcraiyyə Komitəsinin üzvü Erdoğan Arıpınarla apardığımız müzakirələrdən sonra qərara gəldik ki, Mərkəzdə prezident ilə yanaşı, vitse-prezident və baş katib də fəaliyyət göstərsin. Bundan əlavə praktiki məsələlərin həlli üçün əlavə işçilər də olacaq. Çalışacağıq ki, mərkəzin əməkdaşları sırasında xarici ölkə vətəndaşları da olsun. Əgər Mərkəzin strukturu yerli mütəxəssislərdən ibarət olsa, qurumun yalnız Azərbaycanla bağlı olduğu düşünülər. Qeyd edim ki, gələcəkdə Mərkəzə üzv olan ölkələrin sayı artırıla bilər.

***- Bildiyimizə görə, bu il BƏOK-un 2017-ci ilin yekununa əsasən müəyyən olunmuş mükafatlarının təqdimetmə mərasimi Bakıda olacaq.***

- Sentyabrın 20-27-də Azərbaycanda keçiriləcək cüdo üzrə dünya çempionatı çərçivəsində BƏOK-un qala-gecəsi keçiriləcək. Artıq BƏOK və Beynəlxalq Cüdo Federasiyası arasında bu istiqamətdə müqavilə imzalanıb. Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini nəzərə alan qurumlar mötəbər tədbirin təşkilini ölkəmizə həvalə ediblər. Artıq Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov da bu barədə məlumatlıdır və qala-gecə haqqında fikir mübadiləsi də aparmışıq. Bu tədbir ölkəmizdə ikinci dəfə təşkil olunacaq. Bu da Azərbaycanın Ədalət prinsiplərinə sadiqliyinin nümunəsidir. Qeyd edim ki, qala mərasimdə 4 nominasiya üzrə mükafatlar öz sahibini tapacaq. Bunlar “Pyer-de-Kuberten”, “Jak Roqq”, “Con Barotra” və “Villi Daum” mükafatlarıdır. Qeyd edim ki, bu nominasiyalar üzrə mükafatları almaq üçün müxtəlif ölkələrdən 41 namizəd müraciət edib. BƏOK tərəfindən artıq qaliblərin adları müəyyənləşib. Bu mükafatlarsa öz sahiblərinə sentyabr ayında Bakıda təqdim ediləcək.

***Aysel Sultanova***

## “Baku Sailing Regatta-2018”in qalibləri mükafatlandırılıb

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Yelkənli Qayıq Yarışı (“Baku Sailing Regatta-2018”) keçirilib.

31 yelkənçinin iştirak etdiyi reqatada idmançılar dörd sinif (“Optimist”, “Laser-standard”, “Laser-radial”, “Laser 4.7”) üzrə yarışıblar. Onlar “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Dənizçi” və “Xəzər” idman klublarının, Azərbaycan Yelkənli İdman Federasiyasının üzvləridirlər. Qaliblər yerli və beynəlxalq hakimlər tərəfindən müəyyənləşdirilib. Yarışda ilk üç yeri tutan idmançılar mükafatlandırılıblar. Mükafatları gənclər və idman naziri Azad Rəhimov, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev, Azərbaycan Yelkənli İdman Federasiyasının prezidenti Qüdrət Qurbanov təqdim edib.



“Optimist” sinfi üzrə I, II və III yerləri müvafiq olaraq AYİF-in üzvləri Murad Allahverdi, Murad Hacızadə və Ayla Babayeva tutub. “Laser-standard” sinfi üzrə “Xəzər” İdman klubunun üzvləri Mixail Protasov, Rüfət Rəcəbov və Tofiq Abdullayev müvafiq olaraq I, II və III yerlərə layiq görülüblər. “Laser 4.7” sinfi üzrə I yeri “Xəzər” İdman Klubunun üzvü Fərid Məmmədzadə tutub. II və III yerlərə isə AYİF-in üzvləri Rafiq Orucov və Hatim Ammar sahib çıxıb. “Laser-radial” sinfi üzrə AYİF-in üzvü Cavid Kərimov I yeri, “Dənizçi” İdman Klubunun üzvü Kiril Klinçev II yeri, “Xəzər” İdman Klubunun üzvü Ağasəlim Ağalarov isə III yeri qazanıb.

Qeyd edək ki, Azərbaycan Yelkənli İdman Federasiyasının aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayıb. Həmin dövrdən bu günə kimi dinamik məşqlərə start verən Yelkənli İdman Federasiyasının yelkənçiləri Azərbaycanı bir çox beynəlxalq yarışlarda uğurla təmsil ediblər.

Yarış çərçivəsində Dənizkənarı Milli Parkda müxtəlif əyləncəli proqramlar, oyunlar və viktorinalar da keçirilib.

Bundan başqa, açıq havada sərgi təşkil edilib. Burada paytaxt sakinləri və şəhərin qonaqları gəmi və dənizçiliyə aid maraqlı eksponatlarla tanış olublar. Həmçinin yarış boyunca sahildə qayıqların nümayişi də baş tutub.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC bu il 160 illik yubileyini qeyd edir. Yubiley ili çərçivəsində bir neçə silsilə layihənin həyata keçirilməsi nəzərdə tutulub. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Yelkənli Qayıq Yarışı (“Baku Sailing Regatta-2018”) həmin layihələrin birincisidir.

## Çernoqoriyada şahmat turniri təşkil edilib

Azərbaycan-Çernoqoriya Mədəni və İqtisadi Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə şahmat üzrə “Heydər Əliyev kuboku” turniri keçirilib.

Turniri Mərkəzin direktoru Seyran Mirzəzadə açaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri haqqında iştirakçılara məlumat verib. Mərkəzin direktoru ulu öndərin 90-cı illərdə Azərbaycanın dövlət müstəqilliyini itirmək ərəfəsində olarkən xalqın istəyi ilə hakimiyyətə gəldiyini, ölkəni böyük təhlükədən xilas etdiyini diqqətə çatdırıb. O, Azərbaycan xalqının bu dahi şəxsiyyətin xidmətlərini heç vaxt unutmayacağını bildirib.

Seyran Mirzəzadə Heydər Əliyevin Azərbaycanda şahmatın inkişafına xüsusi önəm verdiyini nəzərə alaraq, ulu öndərin anadan olmasının 95-ci ildönümü münasibətilə məhz şahmat turnirinin keçirilməsinin qərara alındığını söyləyib. Qeyd olunub ki, dövlətin xüsusi diqqəti və dəstəyi sayəsində şahmat dünyasında Azərbaycanın özünəməxsus yeri var. Azərbaycan komandası 2017-ci ildə şahmat üzrə Avropa çempionu olub. Ölkəmizin bu titulu 8 il ərzində üç dəfə qazanması tarixi uğurdur.

Çernoqoriya Şahmat Birliyinin prezidenti Radoyicsa Qrba çıxışında Heydər Əliyevin Azərbaycan xalqının rifahı üçün göstərdiyi xidmətlərdən təsirləndiyini, xalqların böyüklüyünün öz tarixi şəxsiyyətlərinə verdiyi dəyərlə ölçüldüyünü və bu mənada azərbaycanlıların böyük xalq olduğunu bildirib. O, belə bir turnirin təşkilatçısı olmaqdan şərəf duyduqlarını ifadə edib. Vurğulayıb ki, Azərbaycan şahmat dünyasında sayılıb-seçilən güclü rəqiblərdəndir.

Turnirdə “Heydər Əliyev kubokunu” Blajo Kaleziç qazanıb. Azərbaycan Respublikasının Çernoqoriyadakı diplomatik nümayəndəliyinin müşaviri Anar Əcəmov və Azərbaycan-Çernoqoriya Mədəni və İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə qalib və iştirakçılara mükafatları təqdim ediblər.



## Millimiz Qızıl Avropa Liqasına hazırlaşır

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi mayın 3-də Sloveniyaya yollanıb. Millimiz Qızıl Avropa Liqasına hazırlığı Mariborda davam etdirir. Voleybolçularımız hazırlığın gedişində bir neçə yoxlama matçı da keçirməyi planlaşdırır. Bu rəqiblər sırasında Slovakiya, Sloveniya, Avstriya və Xorvatiya kimi rəqiblər var.

Qeyd edək ki, Faiq Qarayevin yetirmələrinin Sloveniyadakı hazırlığı mayın 16-dək davam edəcək.

## Yeniyetmə velosipedçimiz Türkiyədə finişi birinci keçib

Şosse velosipedi üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandalarımız mayın 5-6-da Türkiyənin Ordu şəhərində təşkil olunan yarışda uğurla çıxış ediblər. Baş məşqçi Əbülfəz Məmmədovun rəhbərliyi altında qardaş ölkədə 9 oğlan və 1 qız velosipedçimiz mübarizə aparıb.

Yeniyetmə qızların 15 km məsafəyə kriterium ötüşməsində yeganə qız idmançımız Viktoriya Sidorenko fərqlənib - o, bütün rəqiblərini qabaqlamaqla fəxri kürsün ən yüksək pilləsinə qalxıb. Qeyd edək ki, idmançımız ilk yarış günündə 40 km məsafəyə qrup ötüşməsində finişi 2-ci keçib.

Heyətdə Nəcəf Bağırov, Xankişi İsgəndərov, Qadir Mustafayev, Şahin Eyvazov, Əli Qurbanov və Mahmud Məmmədovun yer aldığı gənclər yığmamız isə qrup və kriterium ötüşmələrini komanda hesabında 3-cü yerdə başa vurub və çempionatın bürünc medalına layiq görülüb.



## “Moskvanın 5 Halqası”nda uğurlu çıxış

Rusiyanın paytaxtı Moskvada Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı “Moskvanın 5 halqası” (Five Rings of Moscow) veloturuna yekun vurulub. 23 kollektivin mübarizə apardığı yarışın sonuncu, 4-cü mərhələsi Elit yığmamız və “Synergy Baku” kontinental komandamızın üzvü Kiril Pozdnyakovun qələbəsilə başa çatıb.

122 km-lik mərhələni 3 saat, 1 dəqiqə, 40 saniyəyə başa vurmaqla hamını qabaqlayan təmsilçimiz, bununla da 4 mərhələnin yekununa əsasən ümumi təsnifatda qalibdən 43 saniyə geri qalmaqla 2-ci yeri tutub. Xatırladaq ki, Pozdnyakov yarışın 1-ci mərhələsində finişi 3-cü keçib.

“Synergy Baku” komandası Moskvada Musa Mikayılzadə, Ənvər Asanov, Kiril Pozdnyakov, Kərim Şirəliyev, Samir Cəbrayılov və Telman Vəliyevdən ibarət heyətlə təmsil olunub.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"

# Gənc nəslin vətənpərvərlik tərbiyəsində müəllimlərin rolu böyükdür

*Ali təhsil aldığım universitetə getməyi çoxdan planlaşdırsam da, işlərin çoxluğundanmı, ya da münasib vaxt bilmədiyimdənmi, alınmırdı. Demək ki, hər şeyin bir səbəbi varmış...*

*"28 may" metrosundan çıxıb Süleyman Rüstəm küçəsi ilə üzü yuxarı qalxanda xəyalımda təxminən 25 il bundan əvvəlki şirin, kövrək xatirələr canlandı. Düz 5 il sərasər, istidə, soyuqda həmin bu küçə ilə qoynunda təhsil aldığım doğma universitetə getdiyim günləri xatırladım. İmtahan, sessiya həyəcanı yaşadığım, qayğısız tələbəlik illərimə qayıtdım sanki... Bu küçənin mənim üçün son ünvanı M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun (red.indiki Bakı Slavyan Universiteti) binası idi. İndi addımladığım bu küçə məni məhz həmin ünvana aparırdı. Universitetin binasının yanında iki gənc tələbə dayanmışdı. Mən onlardan binaya girişin hansı qapıdan olduğunu soruşanda gənclərdən biri qayıtdı ki müəlliməsinizsə, yuxarı qapıdan keçin. Bu kəlmələr mənə bir daha xatırlatdı ki, cəmiyyətimizdə müəllim adına, müəllim nüfuzuna həmişə böyük hörmət olub və olacaq. Əsl müəllim adına layiq olanlara hamıdan əvvəl söz haqqı verilib, mötəbər məclislərdə başda yer göstərilib, hörmət edilib. Fikrimi dahilərin müəllimlər haqqında dedikləri müdrik kəlamlarla tamamlamaq istəyirəm.*

"Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz (Sokrat).

"Pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir (Adolf Disterveq).

"Müəllimlərindən işgəncə görməyən həyatda zülm çəkər" (Adolf Disterveq).

Orta təhsil aldığım Cocuq Mərcanlı kənd orta məktəbindən tutmuş Bakı Slavyan Universitetindəki bütün müəllimlərimin qarşısında baş əyir, əllərindən öpürəm. Onlara demək istəyirəm ki, sizin bizlərlə fəxr etdiyinizi görəndə həyatda mənalı, sağlam yaşamağın, iradəli, təmkinli olmağın əhəmiyyətini bir daha anlayırıq. İdmançını qələbəyə aparan məşqçisi, bizləri isə zirvələr fəth etməyə yönləndirən əziz müəllimlərimizdir.

## Ömrünü gənclərin tərbiyəsinə, onların sağlamlığına həsr edib

Məni doğma təhsil ocağına aparan əsas səbəb əziz müəllimim Sabir Hacıyevin 70 illik yubileyi ilə bağlı material hazırlamaq idi. 23 il bundan əvvəl məzun kimi tərk etdiyim binanın qapısından ölkədə idman və Olimpiya Hərəkatının təbliğində layiqli imzası olan bir mətbu orqanın - "Olimpiya dünyası" qəzetinin əməkdaşı kimi daxil olmaqdan şərəf duyurdum. Universitetin binasından içəri daxil olanda əvvəl fakültəmizin dekan müavini, sonra isə dekanı olan, hazırda Azərbaycan Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədovla təsadüfi qarşılaşmağımız mənim üçün əsl sürpriz oldu. Obyektivliyi, tələbkarlığı ilə hər bir tələbənin hörmətini qazanmış əziz müəllimimlə ayaqüstü bir xeyli söhbət etdikdən sonra Sabir müəllimin yanına yollandım. Sabir müəllim məni doğma övladı kimi bağrına basdı. Həmin dəqiqədə keçirdiyim hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm... Deyirlər ki, insanın xarakteri illər keçsə də, dəyişmir. Mənim əziz müəllimim yaşının üstünə yaş gəlsə də, yenə əvvəlki kimi şux və qıvraq görünürdü. Ən yaxşısı, Sabir müəllimin özünü dinləmək, Bakı Slavyan Universitetində 50 ilə yaxın fəaliyyəti ilə bağlı fikirlərini, düşüncələrini elə yubilyardan eşitməkdir.

***- Sabir müəllim, 50 ilə yaxındır ki, idman sahəsində çalışırsınız. Sizi bu sahəyə bağlayan nədir?***

- Uşaqlıqdan bizim ailədə idmana böyük maraq olub. Məndən böyük qardaşlarım müxtəlif idman növləri ilə məşğul olurdular. Onların bu sevgisi mənə də keçdi.

Mən 1948-ci il martın 22-də Mərdəkanda doğulub, böyümüşəm. Orta məktəbi 1956-1968-ci illər ərzində Bakıda bitirmişəm. Orta məktəbdə oxuyanda (1965) Salyanda voleybol üzrə ölkə birinciliyi keçirilirdi. İlk dəfə həmin yarışda iştirak etmişəm. Məşqçilər mənim gələcəkdə yaxşı voleybolçu ola biləcəyimi deyirdilər. Həmin yarışda normanı yerinə yetirərək dərəcə aldım.

Orta məktəbi qurtaran ili S.M.Kirov adına Azərbaycan Bədən Tərbiyə və İdman İnstitutunun (red.indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) voleybol üzrə məşqçi-müəllim fakültəsinə qəbul olundum. 4-cü kursda oxuyanda məni M.F.Axundov adına Rus-dili və Ədəbiyyatı İnstitutunda bədən tərbiyəsi və idman kafedrasına idman müəllimi kimi işləməyə dəvət etdilər. 1972-ci ildə institutu bitirdikdən sonra bu ali təhsil ocağında işimi davam etdirdim. Hərbi xidmətimi başa vurduqdan sonra, yəni 1975-ci ildə Axundov adına APİ-nin bədən tərbiyəsi və idman kafedrasının baş müəllimi vəzifəsində əmək fəaliyyətinə başladım. 1975-1980-cı illərdə institutun nəzdində olan və Nabran qəsəbəsində yerləşən "İdman sağlamlıq tələbə düşərgəsi"nin rəisi vəzifəsində çalışmışam. Mən həm də xeyli müddət institutun qızlardan və oğlanlardan ibarət voleybol komandasının məşqçisi kimi fəaliyyət göstərmişəm.



Aspiranturanı bitirdikdən sonra 1975-ci ildə institutda baş müəllim işləməyə başladım. 1981-ci ildə Leninqrad Dövlət Pedaqoji İnstitutunun aspirantura şöbəsinə qəbul oldum və 1986-cı ildə Moskva Pedaqoji İnstitutunda "Fiziki inkişaf və hazırlığın regional xüsusiyyətləri əsasında tələbələrin fiziki tərbiyəsi" mövzusunda müdafiə etdim. 1987-ildə pedaqoji elmlər namizədi,1990-cı ildə isə dosent elmi dərəcəsi aldım.

## "Məzunlarımızla fəxr edirik"

***- Universitetdə idman kafedrası nə vaxt yaradılıb?***

- Burada bədən tərbiyəsi və idman kafedrası 1946-cı ildə yaradılıb. Kafedranın nəzdində əvvəllər bədii gimnastika, üzgüçülük, voleybol, futbol, boks, yüngül atletika, güləş kimi idman növləri tədris olunub. 1972-ci ilə qədər kafedraya Həsən Rəhimov, 1992-ci ilə qədər isə beynəlxalq dərəcəli hakim, dosent Tofiq Bəhramov rəhbərlik edib. Tofiq Bəhramovdan sonra onu kafedra müdiri kimi mən əvəz elədim. 48 illik idman karyeramın 28 ilini kafedra müdiri kimi fəaliyyət göstərmişəm. Qeyd edim ki, BSU-da 5 fakültə, magistratura, qiyabi təhsil şöbələri, məktəb-lisey kompleksi fəaliyyət göstərir. 34 kafedra tədris və elmi-tədqiqat işi aparır. Burada 50-yə qədər elmlər doktoru, professor, 200 fəlsəfə doktoru, dosent və 200-dən artıq baş müəllim və müəllim gənclərə elmin sirlərini aşılayırlar.







Universitetimizin məzunları arasında tanınmış insanlar kifayət qədərdir. Dilçi-qafqazşünas Vəli Xıdırov, yazışı-publisist Xeyrulla Ağayev, Əminə Yusifqızı və başqaları məhz BSU-da təhsil alıblar. Məzunlarımızla fəxr edirik.

***- Sizinlə keçmiş illərə qayıdaq. Gəncliyiniz, işə başlamağınız postsovet dövrünə təsadüf edib...***

- Həmin dövrdə 15 müttəfiq respublikanın tələbələri bir yerə yığışaraq güclərini, fiziki bacarıqlarını yoxlayırdılar. Bizim institutun qızlardan və oğlanlardan ibarət komandası yarışlarda fəal iştirak edirdi. 2000-ci ildə MDB ölkələrinin pedaqoji institutlarının tələbələri arasında basketbol yarışlarında iştirak etmişik. Sonda Minsk, Kiyev şəhərlərində futzal oyunlarında qüvvəmizi sınamışıq. Komandamız yarışlardan uğurlu nəticələrlə qayıdıb. Hər il ölkəmizdə Ali Təhsil Müəssisələri Tələbələri arasında keçirilən respublika universiadalarında və çempionatlarında BSU-nun idman komandası mükafatalayiq yerlər tutub, fəxri diplomlarlaa təlif olunub.

Qızlardan ibarət voleybol komandamız xüsusilə çox güclü idi. Həmişə tələbələr arasında universiada yarışlarında mükafatalayiq yerlərdən biri bizim olurdu. Adətən, 1-ci yerdə idman institutunun tələbələri qərarlaşırdılar. 2 və 3-cü yerləri isə müvafiq olaraq Azərbaycan Neft və Kimya İnstitutunun (red. indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) və bizim institutun komandası bölüşürdü.

***- Səhv etmirəmsə, 2003-cü ildə komandanız böyük uğur qazanmışdı?***

-BSU-nun bədən tərbiyəsi və idman kafedrası tələbələrlə, eləcə də, universitetin müəllim kollektivi ilə daxili yarışlar təşkil edir. Hər il ənənəvi olaraq professor və müəllim heyəti arasında şahmat, nərd, stolüstü tennis, dama və mini futbol üzrə BSU birinciliyi keçirilir. Həmin birinciliklərin qalibləri AHİTA-nın spartakadialarında universitetin idman şərəfini qoruyurlar.

Bəli, 2003-cü ildə uğurlarımız xüsusilə çoxdur. Həmin ildə keçirilən Ali Təhsil Məktəbləri Tələbələrinin VI Respublika Universiadasında BSU-nun komandası 27 ali təhsil ocağı arasında 2-ci yeri tutub. Yaxşı xatirimdədir, "Olimpiya dünyası" qəzetinin may nömrəsində bu barədə ətraflı material verilib. Bu, bizim universitetin idman həyatında ən böyük nailiyyətlərindən biridir. Sonra yenə 2003-cü ildə AHİTA-nın 10 illik yubileyinə həsr olunmuş spartakiadada qadınlardan ibarət voleybol və atletika komandamız uğurla çıxış ediblər.

BSU-nun kişilərdən ibarət basketbol komandası 2009-cu ildə MDB ölkələrinin Pedaqoji Ali Məktəbləri arasında keçirilən yarışda bürünc medala layiq görülüb. Təkcə 2009-2010-cu ildə kafedramız universitetin idman şərəfini layiqincə qoruyaraq 9 kubok və 17 sayda diplomla mükafatlandırılıb.

## İdmanda kütləviliyin təmin olunması çox mühümdür

***- O vaxtdan indiyə kimi nə dəyişib?***

- Bizim nəsil sovet dövründə tərbiyə və təhsil alıb. O dövrün üstünlüklərindən biri də bu idi ki, kütləviliyə böyük diqqət verilirdi. Ali təhsil ocaqlarında da bu iş yüksək səviyyədə aparılırdı. Demək olar ki, bütün tələbələr idmanla məşğul olur, bölmələrə yazılır, yarışlarda həvəslə iştirak edirdilər. Pedaqoji kollektiv qarşısında gəncləri idmana cəlb edilməsi tələbi qoyulurdu və biz idman müəllimləri də, bu tələbə görə işləyirdik.

***- Necə ki, 28 il bundan əvvəl məndə idmana, xüsusilə də, stolüstü tennisə qarşı məhəbbət oyatmışdınız...***

- (gülümsəyir). Pis eləmişəm məgər? İdman sağlamlıqdır, yüksək əhval-ruhiyyədir. Bunu o vaxtlar tələbələr özləri də başa düşürdülər. Sizin kimi bir çoxları əla oxuduqları üçün idmanla məşğul olmağa vaxt tapmadıqlarını bəhanə gətirirdilər. İstəsən, işini düzgün planlaşdırmağı bacarsan, hər şey mümkündür. Sadəcə, işin mahiyyətini anlamaq, dərk etmək lazım gəlir.

## "Söhbət gənclərin sağlamlığından gedəndə..."

***- Hazırda ali məktəblərdə idman kafedraları klublarla əvəz olunub. Buna bir təcrübəli pedaqoq, idman mütəxəssisi kimi münasibətiniz necədir?***

- Bu məsələyə birmənalı olaraq münasibətim müsbət deyil. Düşünürəm ki, ali təhsil ocaqlarında bədən tərbiyə dərslərinin tədrisinin ləğv olunması düşünülməmiş bir addımdır. Bu təcrübə Avropa ölkələrinin ali məktəblərində tətbiq olunur. Onlarda vəziyyət tamam başqadır. Əvvəllər qiymətə görə tələbə məcburi olsa da, idman bölməsinə gəlir, müəyyən vaxtda bədən tərbiyəsi ilə məşğul olurdu. İndi isə onlara müstəqillik verilib, kim istəyir kluba gəlir, kim istəyir, gəlmir. Belə olan halda kütləvilikdən söhbət gedə bilməz.

***- Belə çıxır ki, idman müəllimləri tələbələrin arxasınca düşməli olurlar?***

- İnanırsınız, vəziyyət elə bu cürdür. Onların hər biri ilə danışmalı, başa salmalı oluruq. Fakt odur ki, müasir dövrdə uşaq və gənclərdə skalioz, yastıpəncəlik kimi bir sıra xəstəliklər aşkar edilir və təəssüf ki, bu problemlər getdikcə artır.

Bir neçə ali təhsil ocağının idman kafedralarının rəhbərləri ilə birlikdə Azərbaycan təhsil nazirinin müavini Firidun Qurbanovun qəbulunda olmuşuq, ona öz irad və təkliflərimizi bildirmişik. İdman kafedralarının yenidən bərpa olunmasının vacibliyini diqqətə çatdırmışıq. Yaxşı olardı ki, heç olmasa, 1-ci kursda təhsil alan tələbələrə idmanın tədrisi təmin edilsin ki, biz onların içərisindən seçim edə bilək. Bir sözlə, bir kağızla illərlə qurulub yaradılanı ləğv etmək asandır, qurmaq isə çox çətin. Söhbət gənclərin sağlamlığından gedəndə daha dərindən düşünmək lazım gəlir. Axı gənc oğlanlar əsgər, ailə başçısı, gənc qızlar isə gələcəyin analarıdırlar. Sağlam olmayan gəncdən necə ailə başçısı, əsgər olacaq? Nəzərə alsaq ki, uşaqların tərbiyəsində əsas yük anaların üzərinə düşür, gənc qızların fiziki və mənəvi cəhətdən sağlam olmaları məsələsi mühüm əhəmiyyət kəsb edir.

Digər tərəfdən idman klublarında tələbələrin sayı az olduğundan müəllimlər öz işləri ilə vidalaşmalı olurlar. Bu, acınacaqlı haldır. Dövlətimiz dünyada idman ölkəsi kimi tanınır, idmançılarımız beynəlxalq arenada biri-birinin ardınca möhtəşəm qələbələr qazanırlar, Bakıda tez-tez mötəbər beynəlxalq yarışlar keçirilir. Respublikamızda müasir standartlara cavab verən Olimpiya idman kompleksləri, stadionlar, zallar fəaliyyət göstərir. Bu nailiyyətlərin fonunda ali məktəblərdə idmanın tədrisinin ləğvi başadüşülən deyil.

***- Sabir müəllim, hazırda tələbələrin təhsil səviyyəsi sizi qane edirmi?***

- Yaşıma, təcrübəmə əsasən deyə bilərəm ki, 1970-80-ci illərdə təhsil hər mənada çox yüksək səviyyədə aparılırdı. Nizam-intizam, dərsə davamiyyət də öz yerində. İndi isə vəziyyət tamam başqadır. Bəzi nüanslar var ki, təhsilin səviyyəsinə istər-istəməz öz mənfi təsirini göstərir.

## BSU-nun tələbələri arasında peşəkar idmançılar çoxdur

***- Bakı Slavyan Universitetində hansı idman növlərinə maraq daha çoxdur?***

- BSU-da 3500-yaxın tələbə təhsil alır. Burada badminton, tennis, şahmat, futzal, dama, voleybol bölmələri fəaliyyət göstərir. Bölmələrdə 9 məşqçi-müəllim tələbələrə idmanın sirlərini öyrədir. Tələbələr arasında futbola maraq daha çoxdur. Universitetimizin məzunlarından Rasim Ramaldanov uzun müddət futbol üzrə Azərbaycan yığmasının şərəfini qoruyub. Hazırda "Qəbələ" futbol klubunda oynayır. Məzunlarımızdan Marina Tankaskaya həndbol üzrə millinin üzvü kimi Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarında qızıl medala layiq görülüb. Belə istedadlı gənclərimiz yetərincədir. Məsələn, BSU-nun filologiya fakültəsinin tələbəsi Vüsalə Zeynalova peşəkar karate ilə məşğul olur. Kontakt və Şotakan Karate Federasiyasının üzvü kimi yığmanın tərkibində ölkəmizi yerli və beynəlxalq səviyyəli yarışlarda layiqincə təmsil edir.

***- Necə düşünürsünüz, bazanın olması idmanın inkişafı üçün mühüm şərtlərdindir?***

- İdman növlərinin inkişaf etdirilməsi, uşaq və gənclərin fiziki inkişaf səviyyələrini artırmaq üçün maddi-texniki bazanın, inventarın olması son dərəcə əhəmiyyətlidir. Universitetdə yaxşı badminton bazamız var. Bu səbəbdəndir ki, həmin növdə yarışlara ev sahibliyi edirik. 2017-2018-ci tədris ilində respublikanın ali təhsil müəssisələri arasında keçirilən yarışda BSU-nun komandası 8 iştirakçı arasından 4-cü yerə layiq görülüb. 14 turdan ibarət yarışda AzDBTİA heç kimə güzəştə getməyib. 2-ci yeri ADİU (Azərbaycan Dövlət İqtisadiyyat Universiteti) tutub. BDU yarışın 3-cüsü, BSU isə 4-cüsü oldu.

***-İdmanda uğur qazanmaq üçün hansı keyfiyyətlər tələb olunur?***

- Məqsədə doğru irəliləmək, çalışqanlıq, zəhmətsevərlik. Tənbəl adamdan nə idmançı, nə alim, nə də həkim olar. Əsas odur ki, uşaq və gənclərimiz zərərli vərdişlərdən uzaq olsunlar, sağlam böyüsünlər, çempion olmasalar da olar.

***-Yetirmələrinizlə çiyin-çiyinə çalışmaq necə hissdir?***

- Tələbələrimdən Xanım Sultanova BSU-nun təlim-tərbiyə işləri üzrə prorektoru, Flora Naciyeva pedaqoji fakültənin dekanı, Fikrət Həsənov Tələbə Həmkarlar İttifaqının sədri işləyir (Gülür). Necə hiss edəcəm? Onları görəndə elə bil cavanlaşıram. Elə bilirəm ki, əvvəlki kimiyəm - gənc və qıvraq.

***- Övladlarınızın necə, idmana həvəsləri varmı?***

- İki oğlum var - Əli və Elçin. Biri İqdisadiyyat Nazirliyində, digəri isə Dövlət Gömrük Komitəsində çalışır. Hər ikisinin idmana böyük marağı var. İşdən sonra, istirahət günlərində mütləq idmanla məşğul olurlar. Əli futzal, Elçin isə üzgüçülüklə.

***- Necə düşünürsünüz, təcrübəli idman mütəxəssisi kimi sağlamlıq üçün ən münasib idman növü hansıdır?***

- Düşünürəm ki, üzgüçülük. Çünki bu növdə nəfəs, əzələlər, çəldlik çox mühümdür. Həkimlərin skaliozdan əziyyət çəkənlərə üzgüçülüklə məşğul olmalarını məsləhət görməsi heç də təsadüfi deyil. Onurğanın bərpasında turnik, həlqələr də kömək edir. İkinci yerdə gimnastika gəlir. Gimnastika da sağlamlıq, bədən formasının gözəlliyi üçün əlverişli idman növüdür. Bədənin bel hissəsi möhkəm olmalıdır ki, bel sütununu düz saxlaya bilsin. Mütəxəssislər də sübut edirlər ki, onurğada olan problemlər digər xəstəliklərə də yol açır. Buna görə də valideynlər övladlarının gələcəkdə sağlam olması, xəstəliyə tutulmaması üçün mütləq idmana aparmalıdırlar. Xüsusilə də, üzgüçülük və gimnastika idman növlərinə.

## "Yaşamağa dəyər"

***- Hansı mükafatlarınız vardır?***

- Ömrümün demək olr ki, 50 ilini idmana, gənclərin təlim-tərbiyəsinə həsr etmişəm. Düşünürəm ki, mənalı ömür sürmüşəm. Bu gün hələ də iş başında olduğum üçün dövlətimizə minnətdaram. Yaşıma baxmayaraq, sağlam olduğum üçün idmana borcluyam.

İdman sahəsində çalışdığım müddətdə bir sıra mükafatlara layiq görülmüş, fəxri diplomla mükafatlandırılmışam. Belə ki, 2010-cu ildə ulu öndər Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş tədbirdə fəal iştirak etdiyimə görə, eləcə də, 2012-ci ildə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən "Gənclərin idman hazırlığını inkişaf etdirdiyinə görə" fəxri fərmanla təltif olunmuşam. Elə həmin ildə "Azərbaycan Bayrağı Diplomuna" layiq görülmüşəm.

***- Sabir müəllim, dönüb arxaya baxanda nədən razı, nədən narazı qalırsınız?***

- Ötən illərə boylananda arxada mənalı ömür sürdüyümü görürəm. Gənclikdə insanın enerjisi daha çox olur, nəsə yaratmaq, nəyəsə nail olmaq istəyirsən. İndi yaş öz sözünü deyir. 70 il az yaş deyil. Amma sizin kimi tələbələrimi görəndə dünyanı mənə verirlər və hiss edirəm ki, yaşamağa dəyər.

**Səadət Hakıyeva**

***P.S.*** *Müəllim ömrü əriyən şama bənzəyir. Hər gün qətrə-qətrə əriyərək nura boyayır aləmi.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



## Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş turnir keçirilib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Azərbaycanın Pakistandakı səfirliyinin və İslamabadın Bahriya rayonunun rəhbərliyinin təşkilatçılığı ilə Bahriya Qolf Klubunda qolf turniri və digər əyləncəli yarışlar keçirilib.

Turnirdə və digər yarışlarda Pakistanda akkreditə olunan diplomatik korpusun təmsilçiləri, tanınmış qolfçular və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Turnirin qaliblərinin mükafatlandırılması mərasimində Bahriya rayonunun icraçı direktoru, ehtiyatda olan general-mayor Məhəmməd Əli Xan və Bahriya Qolf Klubunun əməliyyatlar üzrə direktoru Semi Saveri bildiriblər ki, 1969-cu ildən başlayaraq Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə təhsilin, infrastrukturun, həmçinin neft və qaz sənayesinin inkişafına mühüm töhfələr verən ulu öndər Heydər Əliyev 1993-cü ildə müstəqilliyinin itirilməsi təhlükəsi ilə qarşı-qarşıya qalan Azərbaycanda hakimiyyətə qayıdaraq ölkəni dərin böhrandan xilas edərək dinamik inkişaf yoluna çıxarıb. Dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən balanslaşdırılmış və müdrik siyasət nəticəsində Azərbaycanın suverenliyi və müstəqilliyi tam təmin olunub. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi Heydər Əliyevin neft strategiyasının böyük uğurlarındandır.

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə ümummilli lider Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb. Diplomat dahi şəxsiyyətin həyata keçirdiyi müdrik islahatlar nəticəsində ölkədə bütün sahələrdə möhkəm və davamlı inkişafın bərqərar edildiyini vurğulayıb.

Qolf turnirinin ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilməsinin təsadüfi olmadığını bildirən səfir ulu öndərin Azərbaycanda idmanın inkişafına daim xüsusi önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, məhz ümummilli liderin yürütdüyü siyasət nəticəsində Azərbaycanda idman sürətlə inkişaf edib, idmançılarımız olimpiadalarda, dünya və Avropa çempionatlarında, digər nüfuzlu turnirlərdə mühüm uğurlar qazanırlar.

Çıxışlardan sonra turnirin və əyləncəli yarışların qalibləri mükafatlandırılıblar.

## FHN-in əməkdaşı Budapeştdə gümüş medal qazanıb

Macarıstanın paytaxtı Budapeştdə kempo-karate döyüş növü üzrə dünya çempionatı keçirilib. Yarışda 70-ə yaxın ölkənin idmançıları qüvvələrini sınayıblar. FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşı gizir Rüstəm Müslümov yarışda ölkəmizi uğurla təmsil edib. O, 80 kiloqram çəki dərəcəsində gümüş mükafata sahib olub. İdmançımız Polşa və Əlcəzair təmsilçilərini məğlub edərək finala vəsiqə qazanıb. Finalda fransalı döyüşçüyə minimal hesabla məğlub olan Rüstəm Müslümov gümüş medala layiq görülüb.

R.Müslümov bu döyüş növü üzrə dəfələrlə respublika çempionatının və beynəlxalq turnirlərin qalibi olub.



# Formula-1

## Azərbaycan Qran-Prisini 94 min tamaşaçı izləyib

Aprelin 27-29-da Bakıda keçirilən Formula-1 Azərbaycan Qran-Prisinə, həmçinin axşam konsertlərinə ümumilikdə 94 min tamaşaçı baxıb. Formula-1-in ən sürətli şəhər halqasında təşkil olunan ötənilki yarışla müqayisədə bu il ümumi tamaşaçı sayında 31, bilet satışında isə 21 faiz artım qeydə alınıb. Bu il satılan biletlərin 77 faizi yerli azarkeşlərin payına düşür.

Formula-1 üzrə dünya çempionatının 4-cü yarışında iştirak etmək üçün Bakıya gələn əcnəbi azarkeşlərin sayı ötən illə müqayisədə 31 faiz artıb. Mövsümün gözlənilməzliklərlə və həyəcanverici anlarla dolu yarışına şahid olmaq üçün dünyanın 78 ölkəsindən avtoidman həvəskarları Bakıya təşrif buyurublar. Biletlərin təxminən dörddəbiri əcnəbi tamaşaçılar tərəfindən alınıb.

Bakı şəhər halqasında üçüncü dəfə keçirilən yarış azarkeşlərin etimadını doğrulda bilib. Belə ki, həm yarışı yerində canlı, həm də bütün dünyada teleyayım vasitəsilə izləyən milyonlarla tamaşaçı uzun müddət yaddaşlardan silinməyəcək mübarizənin şahidi olublar.

* * *

"Uilyams" komandasının investorlarından biri olan Lourens Stroll onu "Mercedes"in ehtiyat komandasına çevirmək niyyətindədir. Habelə Lourens Stroll "Haas" və "Ferrari" arasında əməkdaşlığa etiraz etməyəcək.

"Uilyams"ın rəhbərinin müavini Kler Uilyams və Lourens Stroll bu şayiəni təkzib edib.

"Bu, cəfəngiyyatdır. Bəli, mən komandanı bu yolla getməyə yönəltməyə çalışdım. Lakin mən onlar üçün Toto Volfdan heç nə almayacağam".

* * *

"Mercedes"in britaniyalı pilotu Luis Hamilton Formula-1 Azərbaycan Qran-Prisini karyerasında ən çətin yürüş adlandırıb. "Yəqin ki, bu, mənim yadımda qalan ən çətin yürüşdür. Daim əsən külək işimizdə çətinlik yaradırdı. Biz, demək olar, nəm asfaltda gedirdik; vəziyyət bu dərəcədə mürəkkəb idi. Yürüş gərginlik dərəcəsinə görə, yağışlı havadakına bənzəyirdi", - deyə Luis Hamilton bildirib.

Xatırladaq ki, L.Hamilton komanda yoldaşı, "Mercedes"in finlandiyalı pilotu Valtteri Bottasın finişə çatmağına az qalmış yarışı dayandırmaq məcburiyyətində qalması nəticəsində qələbə qazanıb.

* * *

Mayami Şəhər Şurası Formula-1 dünya çempionatı mərhələsinin təşkili və keçirilməsi ideyasını dəstəkləyib.

Şəhər rəhbərliyi F1 Mayami Qran-Prisinin küçə mərhələsinin keçirilməsi konsepsiyasını təsdiq etmək və yarışların 2019-cu ildə təşkil olunması üçün maksimum səylər göstərmək niyyətindədir.

2017-ci ildə Formula-1-in icraçı direktoru Çeyz Kerinin Mayami meri Frensis Suares ilə görüşərkən Ostindəki ABŞ Qran-Prisinə əlavə olaraq, dünya çempionatının daha bir mərhələsinin Birləşmiş Ştatlarda təşkili imkanları müzakirə edilmişdi.




## Şahmat festivalı davam edir

Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı keçirilir. Festival çərçivəsində zəka sahibləri 3 qrupda mübarizə aparırlar.

"A" qrupunda 15 ölkənin - Ukrayna, Belarus, İsrail, Hollandiya, Almaniya, İspaniya, İran, Belçika, Yunanıstan, Türkiyə, Rusiya, Gürcüstan, Portuqaliya, Qazaxıstan və Azərbaycanın 58 zəka sahibi mübarizə aparır.

Əmsalı nisbətən aşağı olan şahmatçıların mübarizə apardığı "B" qrupunda isə ölkənin müxtəlif regionlarından 98 zəka sahibi iştirak edir.

"Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının "C" qrupunda 146 şahmatçı qüvvəsini sınayır ki, onların da 55-nin beynəlxalq əmsalı 1000-dən çoxdur.

## Qrossmeysterimiz bir pillə geriləadi

Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2018-ci il mayın 1-də ən yaxşı şahmatçıların yeni reytinq siyahısını dərc edib.

Ötən siyahı ilə müqayisədə reytinq əmsalı 6 bənd azalmış Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov dünya reytinqində ikinci yerdən üçüncü yerə enib.



Norveç nümayəndəsi, üç dəfə Vüqar Həşimov memorialının qalibi olmuş Maqnus Karlsen (2843) reytinq siyahısında yenə birinci yerdədir. Amerikalı şahmatçı Fabiano Karuana 2822 xal ilə ikinci yeri, keçmiş dünya çempionu rusiyalı Vladimir Kramnik 2792 xal ilə dördüncü yeri tutur. İlk beşliyi Şəmkir turnirinin gümüş medalçısı Din Lijen qapayır (2791). İlk onluqda sonrakı yerləri fransalı Maksim Vaşye-Laqrav (2789), rusiyalı Sergey Karyakin (2782), amerikalı Uesli So (2778), hollandiyalı Aniş Qiri (2776) və ABŞ nümayəndəsi Hikaru Nakamura (2769) tutur.

Dünya reytinqinin ilk yüzlüyünə daha beş Azərbaycan qrossmeysteri daxildir. Təmsilçilərimizdən Teymur Rəcəbov (2751) 16-cı, Rauf Məmmədov (2708) 33-cü, Arkadi Naydiç (2697) 47-ci, Eltac Səfərli (2657) 91-ci və Qədir Hüseynov (2654) 99-cu pillədə qərarlaşıb. Qadınlar arasında dünya üzrə reytinq siyahısında ilk beşlik belədir: çinli Yifan Hou (2658), onun həmyerlisi Tszyuy Ventszyun (2571), ukraynalı Anna Muzıçuk (2564), rusiyalı Yekaterina Laqno (2556) və digər rusiyalı Aleksandra Kostenyuk (2555).

## Azərbaycan Kunq Fu Federasiyasının idarə heyətinin yeni tərkibi seçilib



Mayın 2-də Azərbaycan Kunq Fu Federasiyasının idarə heyətinin iclası keçirilib. Federasiyanın prezidenti Nurlan Aslanov çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğıdan bəhs edib. Federasiyanın qarşısında duran vəzifələrdən danışan Nurlan Aslanov bu istiqamətdə görülən işlər barədə məlumat verib.

Daha sonra idarə heyətinin qərarı ilə bir sıra vəzifələrə təyinatlar olub, yeni tərkib formalaşıb. Kikboksinq üzrə beşqat dünya çempionu, Prezident mükafatçısı, dəfələrlə beynəlxalq turnirlərin qalibi olmuş Ehram Məcidov ümumi işlər üzrə, iş adamı Tural Alişanlı isə ictimaiyyətlə əlaqələr üzrə vitse-prezident vəzifələrinə təyin ediliblər. Həmçinin dünya və Avropa çempionu, Prezident mükafatçısı, Əməkdar İdman Ustası Emil Hacıyev peşəkarlar üzrə baş məşqçi, dünya və Avropa çempionu, Əməkdar İdman Ustası Ramin Allahverdiyev böyüklər üzrə baş məşqçi, dünya çempionatının mükafatçısı, idman ustası Aqil Mustafayev gənclərdən ibarət komandanın baş məşqçisi, İntizarə Məmmədova isə mətbuat xidmətinin rəhbəri vəzifəsinə təyin olunub. Yeniyetmə komandalar arasında baş məşqçi vəzifəsi dünya çempionu, idman ustası Ellər Orucova həvalə edilib.

Yeni vəzifələrə təyin olunan idman ictimaiyyətinin tanınmış simaları çıxışlarında yüksək etimada görə federasiya rəhbərliyinə təşəkkür ediblər. Onlar çıxışlarında Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin daha da inkişafında, eləcə də, dövlət, gənclər və idman siyasətinin uğurla həyata keçirilməsi işində var gücləri ilə çalışaraq, gənc nəslin sağlam mühitdə yetişməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini vurğulayıblar.

Sonda bu il keçiriləcək yerli və beynəlxalq yarışlara hazırlıq işləri müzakirə edilib.

## Bakı çempionatının qalibləri mükafatlandırılıblar

Nizami rayonundakı Bakı Texniki Kollecində yaz çağırışına həsr olunmuş "Vətənin müdafiəsinə hazıram!" devizi ilə keçirilən poliatlon çoxnövçülüyü üzrə Bakı çempionatında birinci yeri tutan komanda üzvlərinin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov, Bakı Texniki Kollecinin direktoru Fərrux Məmmədov, qalib komandanın üzvləri və başqaları iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən natiqlər keçirilən tədbirin çağırışa qədər və çağırış yaşlı gənclərin ümumi və fiziki hazırlıq səviyyələrinin müəyyən edilməsi və yüksəldilməsində, gənclərdə vətənpərvərlik ruhunun aşılanmasında mühüm rolu olduğunu qeyd ediblər. Həmçinin komandanın üzvlərinə və məşqçi-müəllimi əldə olunan yüksək nəticə münasibətilə təbrik edib, onlara növbəti yarışlarda müvəffəqiyyətlər arzulayıblar.

Sonda qaliblər BŞGİBİ tərəfindən müvafiq dərəcəli diplom və medallarla təltif olunublar.

## Avropa çempionatında 17 idmançımız yarışacaq

Mayın 9-14-də Serbiyanın Novi Sad şəhərində karate üzrə 53-cü Avropa çempionatı keçiriləcək. Qitə çempionatında 52 ölkədən 532 idmançı mübarizə aparacaq. Yarışda Azərbaycan karateçiləri də qüvvələrini sınayacaqlar. Milliniz turnirdə 17 idmançı ilə təmsil olunacaq.

Azərbaycanın beynəlxalq hakimləri Cahangir Babayevlə Vüqar Kərimov da yarışın hakimləri arasında olacaqlar.

## Komandamız Polşaya yollanır

Kyokşin karate üzrə Azərbaycan yığma komandası mayın 9-da Polşaya yollanacaq. Millimiz Vroslav şəhərində keçiriləcək Avropa çempionatında iştirak edəcək. 28 ölkədən 400-dən çox idmançının mübarizə aparacağı mötəbər yarışda komandamız 15 nəfərlik heyətlə təmsil olunacaq.

Mayın 11-də start götürəcək çempionatın ilk günündə gənclər, ertəsi gün isə kişilər və qadınlar birincilik uğrunda yarışacaqlar.

## Respublika yarışları başa çatıb

"Təhsil" Respublika İdman Mərkəzinin 13-15 yaşlı oğlanlar arasında yunan-Roma güləşi üzrə respublika birinciliyi keçirilib.

Xaçmaz Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 22 komandadan 311 idmançı 10 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Komanda hesabında birinci yerə "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İdman Şahmat Məktəbi, ikinci yerə Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman Şahmat Məktəbi, üçüncü yerə 2 nömrəli Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbi (RİOEUGİM) layiq görülüb.

Daha bir yarış 13-14 yaşlı yeniyetmə boksçular arasında keçirilib. Şağan Olimpiya İdman Kompleksində təşkil olunan "Təhsil" Respublika İdman Mərkəzinin kuboku yarışında nazirliyin tabeliyində fəaliyyət göstərən uşaq-gənclər idman şahmat məktəblərinin, "Neftçi", "Qarabağ", "Zenit", "Rabitə" idman klublarının komandaları iştirak ediblər.



On doqquz çəki dərəcəsi üzrə 210 idmançının mübarizə apardığı yarışda komanda hesabında birinci yeri 1 nömrəli RİOEUGİM kollektivi tutub. İkinci yeri Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İdman Şahmat Məktəbi, üçüncü yeri Gəncə şəhər 1 nömrəli Uşaq-Gənclər İdman Şahmat Məktəbi tutub.

Qaliblər kubok və diplomlarla mükafatlandırılıblar.

Qeyd edək ki, yarışların keçirilməsinin məqsədi müvafiq idman növləri üzrə mərkəzin yığma komandalarını formalaşdırmaq, idmançıların dostluq əlaqələrini yaratmaq, uşaq və yeniyetmələr arasında idman növlərini təbliğ etməkdir.



## FHN-in qurumları arasında keçirilən çempionat başa çatıb

Fövqəladə Hallar Nazirliyinin İdman-sağlamlıq klubu və FHN işçilərinin Həmkarlar İttifaqının təşkilatçılığı ilə aprelin 30-dan mayın 4-dək Nazirliyin qurumları arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş mini futbol üzrə çempionat keçirilib.

5 gün davam edən və nazirliyin Xüsusi Riskli Xilasetmə Xidməti və Mülki Müdafiə Qoşunlarının stadionlarında keçirilmiş çempionatda ümumilikdə hər birində 12 nəfər olmaqla 19 komanda iştirak edib.

Komandalar 4 qrupda mübarizə aparıb. Hər qrupda 1-ci və 2-ci yeri tutan komandalar dörddəbir finala vəsiqə qazanıblar. Yarımfinalda nazirliyin Xüsusi Riskli Xilasetmə Xidməti (XRXX) ilə Maddi-Texniki Təchizat İdarəsinin (MTTİ), Dövlət Yanğından Mühafizə Xidməti (DYMX) ilə Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin (TTNDA) komandaları qarşılaşıblar. Qarşılaşmalarda MTTİ XRXX komandasına 7:3, DYMX isə TTNDA-nın komandasına 3:1 hesabı ilə qalib gəlib. Mayın 4-də isə 3-cü və 1-ci yer uğrunda yekun oyunlar keçirilib. Çempionatın final mərhələsini fövqəladə hallar nazirinin müavinləri - tibb xidməti general-leytenantı Faiq Tağızadə və general-leytenant Etibar Mirzəyev, yarışda iştirak edən komandaların təmsil etdikləri qurumların rəhbər şəxsləri izləyiblər.

Gərgin mübarizə şəraitində keçən qarşılaşmalar zamanı XRXX TTNDA-nın komandasına 8:0 hesabı ilə qalib gərək 3-cü yerə çıxıb. Final matçında isə MTTİ və DYMX-nın komandaları qarşılaşıblar. Maraqlı mübarizə ilə yadda qalan final oyununda rəqibini 6:3 hesabı ilə məğlub edən MTTİ-nin komandası çempion olub.

Final oyunundan sonra tədbirin bağlanış mərasimi keçirilib. Dövlət himninin səslənməsi ilə başlanan mərasimdə çıxış edən fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyev bu yarışın ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilməsinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası ümummilli liderin gənclərə və idmana göstərdiyi diqqət və qayğı ilə qoyulub. Nazir müavini bildirib ki, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində ölkəmiz daha da inkişaf edəcək və çiçəklənəcək. Natiq qalib komandaları təbrik edib, onlara uğurlar arzulayıb. Daha sonra FHN işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və FHN İdman-sağlamlıq klubunun rəisi polkovnik Füzuli Musayev çıxış edərək iştirakçıları təbrik edib, onlara uğurlar arzulayıblar.

Sonda qaliblərə kubok, medal və diplomlar təqdim edilib.

## Ölkəmizdə növbəti beynəlxalq yarış keçiriləcək

Gənclər və İdman Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının təşkilatçılığı ilə mayın 25-27-də İçərişəhərdə, eləcə də Şabran rayonunun Qalaaltı və Xaçmaz rayonunun Nabran meşə zolaqlarında səmti müəyyənetmə idmanı üzrə beşinci beynəlxalq kubok yarışı keçiriləcək.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr edilən yarışda müxtəlif yaş kateqoriyaları üzrə fərdi və komanda hesabında mübarizə aparılacaq. Yarışda Azərbaycanla yanaşı, Türkiyə, Belçika, Norveç, Böyük Britaniya, İsrail, Yeni Zelandiya, Çin, Ukrayna, Gürcüstan, Sloveniya, Rusiya, Xorvatiya, Kamerun və digər ölkələrdən olan idmançıların iştirakı gözlənilir. Beynəlxalq yarışın keçirilməsinin məqsədi səmti müəyyənetmə idmanının kütləviləşməsi, sağlam həyat tərzinin və ətraf mühitə qayğı ilə yanaşmanın təbliği, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işinə töhfə verilməsi, idmanın bu növü üzrə milli komanda üçün ehtiyat atletlərin formalaşdırılmasıdır.






## Tbilisidə peşəkarların beynəlxalq reytinq döyüşləri olacaq

Mayın 12-də Gürcüstanın paytaxtı Tbilisidə həvəskar idmançılar arasında Dünya kuboku festivalı keçiriləcək. Mayın 13-də isə ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş WK-1 növü üzrə peşəkar idmançılar arasında beynəlxalq reytinq döyüşləri olacaq. Yarışın əsas təşkilatçısı "Qartal" Peşəkar İdman Klubu, Beynəlxalq RED Drakon təşkilatı və Gürcüstan Döyüş Növləri Konfederasiyasıdır.

Hər iki yarışda 12 ölkədən 150-dən çox idmançı qalib adı uğrunda mübarizə aparacaq. Azərbaycanı bu festivalda və yarışda 17 idmançı təmsil edəcək.

Peşəkar idmançılar sırasında 5 qat Azərbaycan, 3 qat Avropa çempionu, 1 dəfə Dünya kubokunun sahibi Cavidan Cəfərli və 4 qat Azərbaycan, 2 qat Avropa çempionu və 1 dəfə Dünya kubokunun qalibi olmuş Murad Babayev də var.

Mayın 12-də tatami üzərinə həvəskar idmançılar çıxacaqlar.

Ümummilli liderin 95 illik yubileyinə həsr olunmuş yarışda isə peşəkarlar mübarizə aparacaqlar.

Qaliblər diplom, medal və reytinq kəməri ilə mükafatlandırılacaqlar.

### Xəbərlər

## Veteranlar stolüstü tennis yarışlarında bir araya gəliblər

Mayın 5-6-da ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş stolüstü




tennis üzrə veteranlar arasında Azərbaycan çempionatı keçirilib. Yarışın keçirilməsində məqsəd veteranların sağlamlığının möhkəmləndirilməsi, onların fəal idman hərəkatına cəlb edilməsi və stolüstü tennisin geniş əhali arasında təbliğ edilməsindən ibarət olub.

Turnirin açılış mərasimində çıxış edən federasiyanın vitse-prezidenti Fazil Məmmədov ümummilli lider Heydər Əliyevin həyat yolundan və ölkə quruculuğunda atılan məqsədyönlü addımlardan danışıb. O, digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqət və qayğı göstərildiyini qeyd edib.

Sonra veteranlar Şurasının sədri Firudin Qurbanov veteranlar adından onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığını bildirib.

İki gün davam edən çempionatda 50-dən çox veteran idmançı iştirak edib. Qadınlar arasında birinci yeri Xəyalə Qiyasova tutub. Könül Mikayılova ikinci, Gülnarə İbrahimova isə üçüncü yerə sahib çıxıb. Kişilər isə üç yaş qrupunda mübarizə aparıblar. 40-49 yaş qrupunda I yeri Vaqif Məmmədov tutub. Zaur Mikayılov ikinci, Əli Heydərli isə üçüncü olub. 50-59 yaş qrupunda I yerə İlham Ağayev, II yerə Teymur Hüseynov, III yerə isə Əsgərqulu Heydərli layiq görülüb. 60 yaş və daha yuxarı yaş qrupu üzrə yarışlarda Səxavət Heydərov bütün rəqiblərindən üstün olub. Tahir Xudiyev ikinci, Əhməd Həyyatov isə üçüncü yerlə kifayətlənib. Qaliblər federasiya tərəfində kubok, diplom, medal və pul mükafatları ilə mükafatlandırılıblar.

## Tərtərdə futbol festivalı təşkil olunub

Tərtərin Şəxarx qəsəbəsindəki 2 nömrəli tam orta məktəbin idman zalında 12-14 yaşlı yeniyetmələr arasında futbol festivalı təşkil olunub. Festival Açıq Əyləncəli Futbol Məktəbləri layihəsi çərçivəsində AFFA-nın və Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilib. Tədbirdə millət vəkili, AFFA-nın birinci vitse-prezidenti, Uşaq-Gənclər Futbol Federasiyasının prezidenti Rauf Əliyev, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, İlham Məmmədov və başqaları iştirak ediblər.

## Bosniya və Herseqovinada 160-dan çox zəka sahibi yarışır

Mayın 5-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda şahmat üzrə 48-ci turnir start götürüb. Turnirdə 19 ölkədən 164 şahmatçı, o cümlədən 15 qrossmeyster mübarizə aparır.

Azərbaycanı bu yarışlarda beynəlxalq usta Ülvi Sadıqov təmsil edir. O, turnirin start cədvəlində 2473 reytinqlə 13-cü yerdədir. Yarışın reytinq-favoriti türkiyəli qrossmeyster Mustafa Yılmazdır (2621). Rusiyalı Aleksandr Predke (2603) ikinci, xorvatiyalı Ante Brkiç (2598) üçüncü yerdədir.

İsveçrə sistemi üzrə keçirilən "Bosna" beynəlxalq şahmat yarışı 9 turdan ibarətdir.

## "Neftçi idman klubu" İB

## Cüdo

İsrailin Tel-Əviv şəhərində keçirilən cüdo üzrə Avropa çempionatına yekun vurulub.

Azərbaycan millisi mötəbər turnirin iki medalına sahib olub. Cüdoçularımızdan 73 kiloqram çəki dərəcəsində mübarizə aparan Hidayət Heydərov Avropa çempionatının gümüş medalına layiq görülüb. Zelim Kotsoyev (100 kq) isə yarışı üçüncü pillədə başa vurub.

* * *

Mərakeşin Kasablanka şəhərində yeniyetmə cüdoçular arasında Afrika kuboku uğrunda beynəlxalq turnir keçirilib. Bu ilin oktyabr ayında Argentinada keçiriləcək Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına lisenziya xalları verən yarışda "Neftçi İdman Klubu"nun beş idmançısı mükafatalayiq nəticə göstərib. Təmsilçilərimizdən Aytac Qardaşxanlı (48 kq), Vüqar Talıbov (66 kq) və İbrahim Ağakişiyev (81 kq) gümüş medala layiq görülüblər. Ülviyyə Bayramova (52 kq) və Nəriman Mirzəyev (60 kq) bürünc medalla kifayətləniblər.

* * *

Türkiyənin Antalya şəhərində keçirilən cüdo üzrə IBSA dünya kuboku yarışlarına yekun vurulub.

Paralimpiyaçı cüdoçulardan ibarət yığmamız yarışda 1 qızıl, 1 gümüş və 4 bürünc medala sahib olublar.

Sevindirici haldır ki, ölkəmizə medal qazandıran paracüdoçuların hamısı "Neftçi İdman Klubu"nun təmsilçiləridir. Onlardan 81 kiloqram çəki dərəcəsində mübarizə aparan Hüseyn Rəhimli fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yalnız final görüşündə məğlub olan Sevda Vəliyeva (52 kq) gümüş medala layiq görülüb. Səbinə Abdullayeva (57 kq), Orxan Qarayev (60 kq), Kənan Abdullaxanlı (90 kq) və İlham Zəkiyev (+100 kq) isə turniri üçüncü yerdə başa vurub.




## Güləş

"Neftçi İdman Klubu"nun sərbəst güləşçisi Fərid Cabbarov (80 kq) Rusiyanın Tümen şəhərində qızıl medala sahib olub. Yeniyetmələr arasında keçirilən yarışda əzmlə mübarizə aparan idmançımız bütün rəqiblərini məğlubiyyətə uğradıb və beynəlxalq turnirin qalibi adını qazanıb.

## Sambo

Abşeron Olimpiya İdman Kompleksində 2002-2003-cü il təvəllüdlü idmançılar arasında sambo üzrə Sabir Hüseynovun xatirəsinə həsr olunmuş açıq Bakı turniri keçirilib. Yarışda 172 idmançı 10 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Klubumuzun samboçuları turnirin 11 medalını (5 qızıl, 1 gümüş, 5 bürünc) qazanıblar.

## Boks

2004-2005-ci il təvəllüdlü yeniyetmə boksçular arasında "Təhsil" Respublika İdman Mərkəzinin açıq birinciliyi keçirilib. Şağan Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 220 dəri əlcək sahibi medallar uğrunda mübarizə aparıb.Klubumuzun yeniyetmə boksçuları birinciliyin 7 medalına (3 qızıl, 2 gümüş, 2 bürünc) yiyələniblər.

*"Neftçi İdman Klubu" İctimai Birliyinin mətbuat xidməti*

# FUTBOL

***Ötən həftə Topaz Premyer Liqasında XXVI turun oyunları keçirilib. Turun açılış matçında "Kəpəz" komandası "Sumqayıt"ı qəbul edib.***

Gəncə şəhər stadionunda oynanılan görüş 1:1 hesabı ilə başa çatıb. Matçda hesabı meydan sahibləri açıblar. Dario Federiko 66-cı dəqiqədə 11 metrlik cərimə zərbəsindən fərqlənib. Lakin oyunun sonuna yaxın - 86-cı dəqiqədə Amil Yunanov hesabı bərabərləşdirib - 1:1. Beləliklə, "Kəpəz" - "Sumqayıt" matçı heç-heçə başa çatıb.

Günün ikinci qarşılaşmasında "Qəbələ" klubu doğma meydanda "Keşlə" ilə qarşılaşıb. Qəbələ şəhər stadionunda keçirilən oyunun ilk hissəsində hər iki komanda real qol vəziyyətləri əldə etsə də, hesabı qonaqlar açıblar. Qapıçı ilə üz-üzə qalan Slavik Alxasov şansını qaçırmayıb. Hissənin ortalarında Stiven Monroz "Qəbələ" komandasının bərabərlik topunu vurub. Fasilədən sonra tərəflərdən heç biri fərqlənə bilməyib və görüş -1:1 hesabı ilə başa çatıb.

26-cı tura "Qarabağ" - "Neftçi" görüşü ilə yekun vurulub. Turun mərkəzi qarşılaşmasında "Qarabağ" klubu öz meydanında "Neftçi" komandasını qəbul edib.

## "Ağ-qaralar əvvəlki şöhrətini geri qaytarır"



Azərbaycan futbolunun flaqmanı çempionluğu təmin etmiş "Qarabağ"ı minimal hesabla (1:0) məğlub edib. Oyunun yeganə qolunu 36-cı dəqiqədə Rəhman Hacıyev vurub.

Beləliklə, bu qələbədən sonra xallarının sayını 40-a çatdıran "Neftçi" dördüncü pillədə qərarlaşıb.

Hazırda 62 xalı olan "Qarabağ" çempionluğu vaxtından əvvəl bayram edib. Xal hesabını 46-ya çatdıran "Qəbələ" Topaz Premyer Liqasının mükafatçıları sırasında ikinci pillədəki yerini, həmçinin ardıcıl beşinci dəfə UEFA Avropa Liqasına vəsiqəni təmin edib.

"Sumqayıt" və "Neftçi" komandaları isə 40 xalla üçüncü və dördüncü yerləri bölüşürlər.

Turun ikinci günündə "Zirə" səfərdə "Səbail"in qonağı olub.

"Bayıl Arena"da keçirilən qarşılaşmada "Zirə" 1:0 hesabı ilə qalib gəlib. Oyunda yeganə qolu matçın 16-cı dəqiqəsində Müşfiq İlyasov vurub. Qalan dəqiqələrdə qapılara top vurulmayıb və matç "Zirə"nin minimal hesablı qələbəsi ilə başa çatıb.

## "Qəbələ" Gənclər Liqasının qalibidir

AFFA-nın təşkil etdiyi futbol üzrə Gənclər Liqasında sonuncu oyun keçirilib. Liqanın qalibini müəyyənləşdirən "Qəbələ"-"Qarabağ" qarşılaşmasında qapılara qol vurulmayıb. Hər iki komandanın aktivində eyni sayda xal olsa da, şəxsi oyunların göstəricisinə görə, "Qəbələ" çempion olub.

Oyun başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. "Səbail" komandasının üzvü Hüseynəli Quliyev ən yaxşı qapıçı, "Qarabağ"dan Turan Vəlizadə ən yaxşı oyunçu seçilib. Mövsüm ərzində 22 qolla liqanın bombardiri olan Kamran Quliyevə ("Qəbələ") xüsusi mükafat verilib.

Liqanı üçüncü pillədə başa vurmuş "Səbail", ikinci yeri tutmuş "Qarabağ" və turnirin qalibi "Qəbələ" müvafiq olaraq bürünc, gümüş və qızıl medallarla təltif edilib.



Sonda "Qəbələ" komandasına kubok təqdim olunub.

Mükafatları AFFA-nın İcraiyyə Komitəsinin üzvləri İsgəndər Cavadov, Vaqif Sadıqov və Qurban Qurbanov, AFFA-nın texniki direktoru Bernhard Lippert təqdim ediblər.

## Ukrayna final oyunlarına ev sahibliyi etmək barədə müraciət edib

Ukrayna Futbol Federasiyasının prezidenti Andrey Pavelko UEFA Events SA-nın icraçı direktoru Martin Kallenlə görüşüb.

Görüşdən sonra A.Pavelko bəyan edib ki, Çempionlar Liqası finalının uğurlu keçəcəyi təqdirdə, ölkə gələcəkdə UEFA superkubokunun və Avropa Liqasının final oyunlarına Kiyevin, "Olimpiysk" Milli İdman Kompleksinin ev sahibliyi barədə müraciət edə bilər.

Qeyd edək ki, 2020-ci ildə superkubokun və 2019/2020-ci il Avropa Liqasının finalını keçirmək üçün müraciətlərin müddəti artıq bitib.

## Millimiz mövqeyini qoruyub

Futzal üzrə milli komandaların yeni reytinq cədvəli açıqlanıb.

Reytinq cədvəlində Azərbaycan millisi 1440 xalla onuncu pillədəki mövqeyini qoruyub. Reytinq cədvəlinə 1935 xalla Braziliya millisi başçılıq edir. İspaniya yığması 1807 xalla ikinci, Rusiya isə 1700 xalla üçüncü pillədə qərarlaşıb.

# Kiyev səhnəsində "nəhs tamaşası"

### *Hansı kollektivin "çempionluq qastrolu" uğurla bitəcək?*




Gəlin, stadionu bir səhnəyə, futbolu isə bir əsərə bənzədək. Nəfəs kəsən, gərginlik, sevinc və kədər bəxş edən matçlar da, qoy tamaşa olsun. Nədənsə futbol tamaşalarının repertuarı heç vaxt təkrarlanmır. Axı, onu dünya izləyir. Gözümüzü qaldırıb, afişaya baxaq. Ən yüksək pillələrdə, böyük hərflərlə yazılan bu ada rast gəlirik: Çempionlar Liqası. Bu səhnə əsərinin bir fərqli xüsusiyyəti var. O da budur ki, həmin əsərə baxış azaddır. Onu hər yerdə izləmək olar. Bu əsərdə sujet xətti hər dəqiqə dəyişir. Aktyorlar isə fərdi ustalıqlarını nümayiş etdirirlər. Onlardan kimisi monoloqu, kimisi də epizodik rolları ilə kütlənin reaksiyasına tuş gəlir: rəğbət, sevinc, kədər və nifrət. Məşqçilər bu sənət əsərində ssenarist, hakimlər isə quruluşçu rejissordurlar. Amma hərdən elə olur ki, quruluşçu rejissorlar özlərini inzibatçı, hətta qarderobçu kimi aparırlar. Nəticədə, onlar tarixə möhür vuran bir futbol tamaşasının quruluşuna, ssenarisinə müdaxilə edir və tamaşaçı nifrətini qazanır, yaxud əksinə...





Ötən həftə tamaşaçılar futbol teatrında iki fərqli səhnə əsərini seyr etdilər. Bunlardan biri Madrid teatrında nümayiş etdirildi. "Santyaqo Bernabeu" arenasında "Real" peşəkar truppası (teatrda kollektiv mənasını verir) ilə "Bavariya"nı qəbul etdi. Bu tamaşada ispanlar çalışdılar ki, öz azarkeşlərinin ürəyini fəth edib, rəqiblərinə öz bacarıqlarını göstərsinlər. Bu, onlarda alındı. Milyonlar "Real"ın finala vəsiqə üçün göstərdiyi səhnədən razı qaldılar. İnsafla deyək, almanlar da sona qədər mübarizə apardılar. Amma görünür, təcrübə onların işinə mane oldu. Bu tamaşada maraqlı məqamlar o qədər çox oldu ki, 90 dəqiqə tamaşaçıları fərqli epizodlarda intizar içində saxladı. Belə ki, uzun müddət rejissor Zidanın baş rollarında etimadı doğrultmayan Kərim Benzema səhnədə yüksək performans göstərdi. Komandası üçün lazımlı iki topun müəllifi oldu. Bu tamaşanın birinci pərdəsində komandası üçün qol vurub, "ümid şamı yandıran" Coşua Kimmix səfərdə eyni epizodda fərqləndi. Hər zaman "Real"ın tamaşalarında baş rolun ifaçısı olan Kriştianu Ronaldo nədənsə diqqət çəkmədi. Bu görüşlərdə qınaq obyektinə çevrilən portuqaliyalı nədənsə kütləvi səhnələrdə epizodik görünürdü. Bunu tənqidçilər və azarkeşlər fərqli prizmada müzakirə etdilər. Kimisi onun yorğun olduğunu, kimisi dünya çempionatı üçün özünü qoruduğunu və kimisi də özünü finala saxladığını deyirdi. Amma necə deyərlər "nağdı qoyub, nisyəyə qaçmaq olmaz". "Kral teatr"ının aktyorları Ronaldunun yoxluğunu unutdurmağa çalışdılar desək, yanılmarıq. "Almaniyalı rejissor" Yupp Haynkes üçün son şans olan bu qarşılaşmada uğur onun kölgəsi olmaqdan imtina etdi. İspanların "pivəçilər"in heyətində çıxış edən təmisilçisi, 4 il əvvəl dünya çempionatında ən məhsuldar futbolçu olan kolumbiyalı Xames Rodriqes öz keçmiş "iş yoldaşları"nı çətinliyə saldı. O, matçda bərabərlik qolunu vurdu və sevinmədi. Üzündə sevinclə məyusluq bir-birinə qarışdı. Amma bu, hadisələrin kuliminasiyası olmadı. Etiraf edək ki, tamaşanın "bədii rəhbəri" kimi görünən türkiyəli hakim Cüneyt Çakır bir-iki səhnədə haqsız qərarlar verdi. Marselonun əli topa toxunsa da, bu, Çakırın gözündən yayındı. Bununla da o, gərgin, günlərlə çəkilən zəhməti bir anda "göyün yeddinci qatına qaldırıb, əlin boşaltdı" və Almaniya futbolçularının səhnədəki çıxışı uğursuz oldu. Hesab elə bərabərliklə başa çatdı. Futbol festivalında daha bir kollektivin - "Bavariya"nın çempionluq qastrolu yarımçıq qaldı.

Daha bir əsər Romada səhnəyə qoyuldu. Buradakı əsər daha ciddi sujet xəttinə malik idi. Bir həftə əvvəl İrland dənizinin sahilində, "Enfild Road" arenasında "Liverpul"a məğlub olan "qladiatorlar" intiqam hiss ilə görüşə çıxmışdılar. Çünki romalı cəngavərlər futboldakı həyatlarını hər zaman könüllü olaraq təhlükəyə atmağa borclu idilər. Bunu onlardan onları sevən milyonlarla azarkeş tələb edirdi. "Kapitoli canavarları" uğur qazanmağa çalışdılar. Bu istək onlarda alındı. Amma uğurun da uğur səviyyəsi var. Onlar "limanlılara" 4:2 hesabı ilə qalib gəldilər. Bəs, bu qələbə onlara lazım idi? Yenə səhnədə hakim amili öz sözünü dedi. Hadisələr bu cür cərəyan etdi: "Mersisaydlar"ın oyun tərzi heç özünə bənzəmədi. Hər bir qarşılaşmada ən azı iki top vurub, iki qol ötürməsi edən "yeni ulduz" Məhəmməd Salah keçmiş komandasına qarşı heç nə edə bilmədi. Ən nəhayət, sloveniyalı hakim Damir Skomina və onun "sarı köynəkli" dostları "Roma"ya qarşı haqsızlıq etdilər. İki dəfə hətta ən zəif görən azarkeşin gözündən qaçmayan qayda pozuntusu və sükut qeydə alındı . Skomina özünü həmin vəziyyətdə adına uyğun - "dəmir" kimi apardı. "Roma"nın qələbəsi heç nəyi dəyişmədi. Bu məqamda məşhur bir fraza yerinə düşdü: "Bütün yollar Romadan keçir". Bəli, "Liverpul"un, Kiyevə gedən yolu İtaliya paytaxtından keçdi. Lakin bu şəhərin komandası üçün bu yol elə Romanın özündə sona çatdı. Amma italiyalılara göstərdikləri bu çıxışa görə böyük alqış düşür. Nəhayət, Avropanın bir nömrəli futbol çempionatında premyera gözlənilir. Kiyev səhnəsində bu yarışın ardıcıl ikiqat və ümumilikdə 12 dəfə çempionu olan "Real" və 13 ildir ki, kubokun həndəvərində görünməyən "Liverpul" tamaşası göstəriləcək. Maraqlıdır ki, hər iki komandanın qarşılaşması "13" rəqəmi ilə üst-üstə düşür. Belə ki, "Real" kuboka yiyələnsə ,13-cü dəfə çempionluq sevinci yaşacaq. "Liverpul" isə 13 ildən sonra yenidən həmin kuboka sahib olacaq. Bir sözlə hansı komandanın "nəhs"ə düşüb, hansı komandanın "nəhs"dən çıxacağı Kiyevdə məlum olacaq.

***Anar Əhmədov***

## "Bakcell Arena" ilə bağlı yeni qərar

"Bakcell" şirkəti və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Bakının Nizami rayonu ərazisində yerləşən stadionun "Bakcell Arena" adlandırılması üzrə müqavilənin müddətinin uzadılmasına dair razılığa gəliblər.

Əldə edilmiş razılığa əsasən, həmin stadion növbəti il ərzində də "Bakcell Arena" adlandırılacaq.

Qeyd edək ki, ümumi ərazisi 22 min 500 kvadratmetr olan stadionun tikintisinə 2010-cu ilin may ayında başlanıb və beynəlxalq standartlara cavab verən stadion qısa bir müddət ərzində istifadəyə verilib. "Bakcell" ilə AFFA arasında bağlanmış müqaviləyə əsasən, stadion 2013-cü ildə əsaslı şəkildə müasirləşdirilərək "Bakcell Arena" adlandırılıb. 11 min tamaşaçı tutmu olan "Bakcell Arena" ümumi, media və VİP olmaqla üç giriş hissədən və beş sektordan ibarətdir. Stadionda 17 VİP skayboks, tribunanın alt hissəsində komandaların istifadəsi üçün dörd soyunub-geyinmə, məşqçilər, hakimlər, həkimlər üçün otaqlar, mətbuat nümayəndələri üçün otaqlar və konfrans zalları, dopinq-nəzarət və digər otaqlar yerləşir. Stadionun 300 avtomobil tutan dayanacağı var.

Təməli 2013-cü ildə qoyulmuş "Bakcell" və AFFA əməkdaşlığı çərçivəsində Azərbaycanda futbolun inkişafı üçün bir sıra mühüm layihələr həyata keçirilib. Bu birgə fəaliyyət Azərbaycan futbolunun müxtəlif istiqamətlərdə inkişafına öz töhfəsini verib. 2012-ci ildən 2018-ci ilə qədər "Mançester Yunayted" futbol klubunun MDB məkanında ilk telekommunikasiya və yayım tərəfdaşı olmuş "Bakcell" daha sonra müxtəlif böyük və uzunmüddətli layihələr üzrə AFFA ilə əməkdaşlığa başlayıb, Azərbaycanın milli futbol komandalarının sponsoru olub. "Bakcell" və AFFA-nın birgə təşkil etdiyi "Mançester Yunayted Futbol Məktəbi" və həyata keçirdiyi "Futbol Bakcell ilə" və "Mançester Yunayted Yay Futbol Məktəbi" layihələri sayəsində ölkə üzrə gənc istedadlar futbol üzrə bilik və bacarıqlarını artırmaq imkanı qazanıblar. Həmçinin "Bakcell" şirkəti 2016-cı ilin may ayında Bakıda keçirilən "UEFA U-17 Avropa çempionatı"nın və digər nüfuzlu tədbirlərin rəsmi sponsoru və mobil rabitə tərəfdaşı olub.

Azərbaycan gənclərinə daim dəstək olan "Bakcell" ölkədə idmanın inkişafına öz töhfəsini vermək məqsədilə AFFA ilə əməkdaşlıq etməkdən məmnun olduğunu bildirir.

# DÜNYA



# idmanı

## Lider dəyişməyib



İspaniyanın Madrid şəhərində qadınlar arasında tennis yarışları keçirilir.

Mariya Şarapova Qadın Tennis Assosasiyasının (WTA) reytinqində bir pillə irəliləyərək 52-ci yerə yüksəlib.

Rusiyalı tennisçi şənbə günü Rumıniya təmsilçisi Mixael Buzarneskunu İspaniyanın Madrid şəhərində keçirilən yarışda məğlub edib. Onun növbəti rəqibi rumın tennisçisi İrina-Kameliya Bequ olacaq.

Qadın tennisçilərin top onluğunda isə vəziyyət dəyişməyib. Reytinqə əvvəlki kimi Simona Halep liderlik edir.

Qeyd edək ki, məşhur tennisçi Serena Uilyams "Madrid Open"də iştirak etmir. Ana olduqdan sonra formasını bərpa etməkdə çətinlik çəkən Serena məşq azlığı səbəbindən "Madrid Open"dən imtina edib. Turnirin direktoru Manolo Santana Serenanın yoxluğundan böyük üzüntü duyduğunu qeyd edib: "Serenanın turnirdə iştirak etməyəcəyini böyük kədər hissi ilə nəzərinizə çatdırmaq istərdim. O, tennis tarixinin ən möhtəşəm idmançılarından biridi. Mübarizə apardığı hər turnirdə azarkeşlər üçün bütün bacarığını ortaya qoyur. Ümid edirəm, gələcəkdə onu yenidən burada görə biləcəyik".



Qeyd edək ki, Serena Uilyams daha əvvəl iki dəfə "Madrid Open"in qalibi olub.

## Messidən daha bir rekord

"Barselona"nın argentinalı hücumçusu Lionel Messi daha bir rekorda imza atıb.

Lionel Messi 35-ci turda "Deportivo"ya qarşı keçirilən oyunda het-trikə imza atıb. O, növbəti qolunu isə "Real"la qarşılaşmada vuraraq, cari mövsümdə vurduğu qolların sayını 33-ə çatdırıb.

Bununla da ulduz futbolçu "La Liqa"da 7 mövsüm 30 qol həddinə çatan ilk oyunçu olub. O, 2009/10 (34), 2010/11 (31), 2011/12 (50), 2012/13 (46), 2014/15 (43) və 2016/17 (37) mövsümündə də 30-dan çox qola imza atıb.

## Məşqçiyə ağır cəza

Madridin "Atletiko" klubunun baş məşqçisi Dieqo Simeone ağır cəzaya məruz qalıb.

Məlumat üçün bildirək ki, argentinalı məşqçi Avropa Liqasının yarımfinal mərhələsinin "Arsenal"la ilk matçında hakimi təhqir etdiyinə görə texniki zonadan qovulmuşdu. UEFA Nizam İntizam Komitəsi məsələ ilə bağlı araşdırmalarını başa vurduqdan sonra Dieqo Simeoneyə Avropa Liqasının finalında və növbəti mövsümlərdə 3 matçda texniki zonadan uzaqlaşdırma cəzası verilib.

## Fantastik təklif

"Barselona"nın formasını geyinən Andres İnyesta Çin klubundan dəvət alıb.

"Barselona"dan ayrılacağı deyilən təcrübəli oyunçunun Çinə transfer olunacağı bildirilir. İspaniya millisinin üzvü Çin Super Liqa komandalarından olan "Çunqçin Lifan" klubundan 3 illik müqavilə əsasında 81 milyon avro məbləğində təklif alıb. 33 yaşlı ulduz futbolçu bu təklifə razılıq verib.

## Luis Hamilton nədən qorxur?



Formula-1 yarışlarının indiki çempionu Luis Hamilton təqvimdə Mayami Qran-prisinin keçirilməsinə zarafatla münasibət bildirib.

Britaniyalı pilotun sözlərinə görə, onun müəyyən səbəblərdən Florida ştatında keçiriləcək yarışlarda qalib gəlmək şansı azdır.

"Dostum mənə yarış təqvimində Mayami Qran-prisi barədə sms yazmışdı. Həmin an düşündüm ki, mən həmin yarışda qalib gələ bilməyəcəm. Çünki Mayami əyləncəli və nağıllar şəhəridir. Burada dünyanın ən gözəl xanımları yaşayır. Bu xanımların mənim fikrimi yayındıracaqlarından tam əminəm", - deyə çempion zarafatla bildirib.

Qeyd edək ki, Mayami şəhər şurası Formula-1 yarışlarının 2019-cu ildə burada keçirilməsini təklif edib.

## Çinin komandası 21-ci dəfə qalib oldu

Çinin qadınlardan ibarət stolüstü tennis komandası dünya çempionatının qızıl medalını qazanıb.

İsveçin Halmstad şəhərində keçirilən çempionatın finalında Yaponiya yığması ilə qarşılaşan Çin təmsilçiləri yarışdan qalib ayrılıblar. Beləliklə, Çinin qadınlardan ibarət stolüstü tennis yığması 21-ci dəfə komanda yarışlarının qalibi olub.

Dünya çempionatının bürünc medallarına Honkonq və birləşmiş Koreya komandasının idmançıları layiq görülüblər.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*

*("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)*

## Asiyalı idmançı 9 saniyəyə qələbə qazanıb

MMA tarixində yeni rekord qeydə alınıb. Yaponiyalı Kendzi Horiquti ilə amerikalı Yeno Makkol arasında keçirilən döyüşdə matç erkən başa çatıb. Asiyalı idmançı 9 saniyə ərzində rəqibini nokaut edərək, yarışın qalibi adını qazanıb.

## Məhkəmə baş məşqçinin xeyrinə qərar verdi

"Qalatasaray"ın baş məşqçisi Fatih Terimlə Türkiyə Futbol Federasiyasının (TFF) məhkəməsində yekun qərar verilib. Yerli mətbuatda yayılan məlumata görə, məhkəmə baş məşqçinin xeyrinə qərar verib.

Belə ki, ötən il Türkiyə yığmasındakı postundan istefaya göndərilən Terim müqavilənin birtərəfli ləğv olunması səbəbindən təzminatını rəsmi yolla tələb etmişdi. 9 ay davam edən məhkəmənin yekununda federasiya tərəfindən məşqçiyə faizlə birlikdə 9 milyon lirə təzminat ödəməsi hökmü çıxarılıb.

Qeyd edək ki, ötən ilin iyul ayında Fatih Terimi istefaya göndərən yerli futbol federasiyası baş məşqçi postuna Mirça Luçeskunu gətirmişdi.

## Argentinalı "neradzurra"nın tarixinə düşüb

Ötən həftə İtaliya A seriyasının 36-cı turunda "İnter" səfərdə "Udineze"yə 4:0 hesabı ilə qalib gəlib. Bu matç eyni zamanda görüşdə qollardan birini vuran Mauro İkardi üçün yaddaqalan olub. Belə ki, argentinalı futbolçu son 59 ildə "İnter" forması ilə 28 və daha artıq qol vuran ilk futbolçu kimi klubun tarixinə düşüb. Sonuncu dəfə 1958-1959 mövsümündə Antonio Ancelillo "neradzurra"nın heyətində 33 qol vurub.

Qeyd edək ki, hazırda A seriyasının bombardiri 29 qolla Çiro İmmobiledir. Amma "Latsio"nun oyunçusu mövsümün sonuna qədər sıradan çıxdığı üçün qalan iki turda İkardinin onu keçmək şansı var.

## Tanınmış idmançı öz övladı üçün ən bahalı ad günü keçirib



İrlandiyalı döyüşçü Konor Makqreqor bu dəfə qalmaqalla deyil, ailəsi ilə diqqət mərkəzinə düşüb. Belə ki, tanınmış idmançı oğlunun ad günü üçün 34 min dollarlıq tədbir təşkil edib. Ad günü tədbiri İrlandiyanın Kilder şəhərində yerləşən beşulduzlu qolf klubunda təşkil edilib. Maraqlıdır ki, uşağın doğum gününə toplaşanların hər biri Makqreqor tərəfindən qarşılanıb.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19